QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının perspektivləri müzakirə olunub



9

# Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib



2

SƏS
№ 155 (7323)
29 avqust 2025-ci il.
Qiymәti 60 qәpik

## Leyla Əliyeva Şamaxıda körpələr evi-uşaq bağçalarının açılışında...



9

# "Biz uğur hekayəsini nümayiş etdiririk"



8

## Türk dünyasını birləşdirən ortaq dəyərlər və qardaşlıq!



3

## Həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimi keçirilib



5

## Çin avtomobilləri: sərfəli alternativ, yoxsa riskli seçim?



13

## Ərzaq istehsalını artırmaq və idxalı azaltmaq üçün nə etməli?



6

# Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edib







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib. SİA xəbər verir ki, Maqdalena Qrono Avropa İttifaqının rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırıb, Azərbaycan Prezidentini Avropa İttifaqının rəhbərliyi və öz adından Vaşinqtonda Ermənistanla münasibətlərin normallaşdırılması, sülh gündəliyi ilə bağlı əldə edilmiş mühüm nəticələr münasibətilə təbrik edib. O, bu prosesin regionda davamlı sülhün təmin olunmasına böyük töhfə verdiyini vurğulayıb. Qonaq Avropa İttifaqına üzv dövlətlərin də Azərbaycanla Ermənistan arasında əldə olunmuş sülhü dəstəklədiklərini bildirib. Maqdalena Qrono, həmçinin Avropa İttifaqının iki ölkə arasında razılaşdırılmış məsələlərin, o cümlədən nəqliyyat dəhlizinin həyata keçirilməsi prosesinə dəstək verməyə hazır olduğunu qeyd edib.***

Prezident İlham Əliyev salamlara və təbriklərə görə minnətdarlığını bildirib, onun da salamlarını Avropa İttifaqının rəhbərliyinə çatdırmağı xahiş edib. Dövlətimizin başçısı Vaşinqtonda əldə olunan nəticələrin tarixi əhəmiyyət kəsb etdiyini deyərək, bu prosesdə Amerika Birləşmiş Ştatlarının rolunu xüsusi vurğulayıb. Prezident İlham Əliyev qeyd edib ki, ABŞ-ın vasitəçiliyi ilə imzalanmış Vaşinqton bəyannaməsi, sülh sazişinin paraflanması və Minsk qrupunun ləğv edilməsi ilə bağlı Azərbaycan və Ermənistanın birgə müraciəti sülh prosesində atılan mühüm addımlardır.



Görüşdə ölkəmizin Ermənistanla ikitərəfli əsasda etimad quruculuğu tədbirlərini dəstəklədiyi qeyd olunub. Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat və tranzit bağlantısının yaradılmasının vacibliyi bir daha vurğulanıb, xüsusilə Naxçıvanda nəqliyyat infrastrukturunun yenilənməsi istiqamətində Avropa İttifaqı ilə əməkdaşlıq üçün geniş imkanların olduğu bildirilib.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.



## Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi Xankəndidə yerləşəcək

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi artıq Xankəndidə yerləşəcək. SİA-nın məlumatına görə, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.**

Eyni zamanda Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi bundan sonra müvəqqəti olaraq Xankəndi şəhəri və Ağdərənin inzibati ərazilərində də yerli səviyyədə dövlət şəhərsalma nəzarətini həyata keçirəcək.

Qeyd edək ki, indiyə qədər Baş İdarə Bərdə şəhərində yerləşirdi.

* * *

## Prezident İlham Əliyev "Qarabağ" futbol klubunu təbrik edib

**Azərbaycan Prezidenti İlham Əliyev "Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

Paylaşımı təqdim edirik: "Azərbaycanın "Qarabağ" klubu UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanaraq futbol tariximizdə yeni bir səhifə yazdı! "Qarabağ" klubunun bütün komanda heyətini və azarkeşləri təbrik edirəm!".

# Türk dünyasını birləşdirən ortaq dəyərlər və qardaşlıq!

## Prezident İlham Əliyev: "Biz müxtəlif xalqlarıq, amma hamımızın kökləri ortaqdır və bu, türk etnik mənsubiyyətimizdən irəli gəlir"

Türkdilli dövlətlərin arasında qurulan əməkdaşlıq daha da güclənmiş və yeni, daha düşünülmüş mərhələsinə start verilib. Qeyd edək ki, bu gün türk dövlətlərinin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Türk Dövlətləri Təşkilatı türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsinə böyük imkanlar yaratmış oldu. Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. "Türk Dövlətləri Təşkilatı hazırda böyük potensiala malikdir. Azərbaycan daim bu qurumu gücləndirməyə sadiq olub. Bu, bir növ məşvərətçi qrup, şura, ölkələr qrupu kimi fəaliyyətə başlayıb, sonra isə transformasiya edib. O, böyük potensiala malikdir". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibəsində bildirib. Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır. 2009-cu ilin oktyabrında türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması barədə qərarın qəbul edilməsi əməkdaşlığın yüksəlməsində mühüm rol oynadı və dünyada türk birliyinin daha da güclənməsinə şərait yaratmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən müddət ərzində reallaşan layihələr, imzalanan sazişlər və s. türk dövlətləri arasında münasibətləri daha da yaxınlaşdırmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən dövr ərizində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib. " Türkiyə ilə bizim çox sıx münasibətlərimiz var və bu münasibətlər hazırda 2021-ci ildə Şuşada Prezident Ərdoğanla imzaladığımız, bizi hərbi və siyasi müttəfiqlər edən Bəyannaməyə əsaslanır. Bu, hüquqi cəhətdən təkcə hər iki ölkə üçün deyil, bütün Türk dünyası üçün mühüm amildir. Keçən il biz Özbəkistanla müttəfiqlik münasibətləri haqqında Müqavilə imzaladıq. Həmçinin Türk Dövlətləri Təşkilatının digər üzvləri ilə bizim strateji tərəfdaşlıq müqavilələrimiz və ya bəyannamələrimiz var. Beləliklə, bu, böyük potensialdır. Bizi köklərimiz birləşdirir və bu, təşkilatı nadir edir. Çünki digər beynəlxalq təşkilatlara baxsaq, onların hamısını deyil, bəlkə də bir qismini ortaq etnik qrup birləşdirir. Bəli, biz müxtəlif xalqlarıq, amma hamımızın kökləri ortaqdır və bu, türk etnik mənsubiyyətimizdən irəli gəlir. Ölkələrimizin əhalisinin sayı artır və bu da hər bir ölkə üçün vacib amildir", - deyə Azərbaycan Prezidenti bildirib.



Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, "Türk dünyasına baxış - 2040" sənədinin qəbulu ilə bağlı Qərar, "Türk dünyasının birliyinə verdiyi töhfələrə görə" Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır.

Vurğulamaq yerinə düşər ki, Azərbaycanın iqtisadi inkişafı regionda həyata keçirilən transmilli layihələrin uğurla reallaşmasına gətirib çıxarıb. İstismara verilən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri Xəzər neftini və qazını dünya bazarlarına çıxarır. Orta Asiyanın karbohidrogen ehtiyatları Xəzər dənizi və Azərbaycan vasitəsi ilə dünya bazarlarına nəql edilir. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmalarının inkişafını da vurğulamalıyıq. 2013-cü ildə Bakı, Aktau və Samsun beynəlxalq dəniz limanları arasında Türk qardaş limanları haqqında Anlaşma Memorandumu imzalanmışdır. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmaları inkişaf etməkdədir. Bakı - Aktau bərə yolu ilə neftlə yanaşı dəmir yol vaqonları, avtomobil, taxıl və s. Yüklərin daşınmaları da yerinə yetirilir. Aktau portundan Qazaxıstanın şimalını birləşdirən 400 km-lik dəmir yolu kənd təsərrüfatı məhsulları və s.-nin daşınmasını xeyli səmərəli edir. Bütün bu layihələr qədim İpək Yolunun bərpası və türk əməkdaşlığı çərçivəsində ticarət və sərmayə əməkdaşlığının gələcək inkişafı məqsədi ilə həyata keçirilib. Türkdilli dövlətlərarası irimiqyaslı infrastruktur layihələri də reallaşdırılıb və bu davamlıdır. Hazırda bir sıra böyükmiqyaslı layihələr həyata keçirilməkdədir. Azərbaycan Prezidenti müsahibəsində "Bizim geniş coğrafiyamız var. Türkiyə qlobal miqyasda aparıcı hərbi gücdür və Türkiyə ordusu NATO daxilində ABŞ-dan sonra ikinci yerdədir. Azərbaycan Ordusu da özünü paradlarda deyil, döyüş meydanında nümayiş etdirdi", - deyə diqqətə çatdırıb ki, bu gün dəhlizlərdən danışanda bizdən yan keçə bilməzsiniz: "Siz bizim ərazimizdən, obyektlərimizdən istifadə edə bilərsiniz.





Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi iki dost və qardaş ölkə arasında 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə, eləcə də Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanır. Əminliklə bildirək ki, Azərbaycanla Türkiyə arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivləri, o cümlədən, tərəflərin siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsi münasibətlərin inkişafında əhəmiyyət kəsb edir. Bəyannamədə qeyd olunduğu kimi, öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən qardaş dövlətlər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər.



### "TƏŞKİLATIN BÜTÜN ÜZVLƏRİNDƏ SİYASİ SABİTLİK, BİR-BİRİ VƏ HAMISI ARASINDA DOST MÜNASİBƏTLƏR MÖVCUDDUR"

Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına Sədrlik dövründə türk dünyasının birləşməsinə böyük töhfələrini verdi. Azərbaycan Respublikasının Prezidenti, Türk Şurasının Sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi və bu görüşün koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunması dövlət başçıları səviyyəsində pandemiya ilə bağlı Zirvə görüşünü keçirən ilk beynəlxalq tədbir kimi tarixə düşdü. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü xüsusilə qeyd etməliyik. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan

*Ardı Səh. 4*

# Türk dünyasını birləşdirən ortaq dəyərlər və qardaşlıq!

## Prezident İlham Əliyev: "Biz müxtəlif xalqlarıq, amma hamımızın kökləri ortaqdır və bu, türk etnik mənsubiyyətimizdən irəli gəlir"

Əvvəli Səh. 3

Həm də vacib olan odur ki, təşkilatın bütün üzvlərində siyasi sabitlik, bir-biri və hamısı arasında dost münasibətlər mövcuddur. Bu, təşkilatı həqiqətən nadir edir. Ona görə də biz onu konkret layihələrlə, investisiyalarla, enerji, daşımalar, mədəniyyət layihələri ilə möhkəmləndirməliyik. Ona görə də mən gələcəkdə bu təşkilatı mühüm qlobal iştirakçılardan biri kimi görürəm. Beləliklə, bizim fikrimiz beynəlxalq arenada rol oynaya bilən, təkcə daxili məsələlərlə məşğul olmayan qlobal oyunçuya çevrilməkdən ibarətdir ki, həm də beynəlxalq arenada sabitləşdirici, müsbət rol oynasın və qonşular üçün imkanlar yaratsın. Bununla da biz belə bir nəhəng coğrafiyada heç kimə təhlükə törətməyən, lakin çoxları üçün fürsət hesab edilən güclü birlik qura biləcəyimizi nümayiş etdirək"




### ”AZƏRBAYCAN ÜÇÜN TÜRK DÖVLƏTLƏRİ İLƏ ƏLAQƏLƏR XARİCİ SİYASƏTDƏ BİRİNCİ DƏRƏCƏLİ VƏZİFƏDİR”

Xatırlatmaq yerinə düşəər ki, Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib ki, Azərbaycan üçün türk dövlətləri ilə əlaqələr xarici siyasətdə birinci dərəcəli vəzifədir. Prezident qeyd edib ki, təsadüfi deyil ki, son bir neçə il ərzində mənim Təşkilata üzv olan ölkələrə çoxsaylı səfərlərim həyata keçirilmişdir: "Təşkilata üzv ölkələrin dövlət və hökumət başçılarının da Azərbaycana bir çox səfərləri həyata keçirilmişdir və bu il də bu səfərlər nəzərdə tutulur. Yəni, bu, bir daha onu göstərir ki, biz düzgün yoldayıq."



Məlumdur ki, 2020-ci il türk dünyası məhsuldar, Zəfər ili olaraq yadda qaldı. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir. Azərbaycan tərəfi məsələnin sülh yolu, danışıqlar masasında həll edilməsi istiqamətində addımlar atmış olsa da, Ermənistan faktiki olaraq danışıqlardan imtina etdi və ölkəmiz döyüş meydanında öz sözünü deyərək, Zəfər qazandı. Hamının bildiyi kimi, Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan 2020-ci ilin sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə edərək, Türkiyənin Azərbaycanın yanında olmasını ifadə etdi. Türk Şurası sentyabrın 28-də Azərbaycana dəstək xarakterli açıqlama verdi.

Ən çətin anlarda türk dünyası Azərbaycanın, Azərbaycan türk dünyasının yanındadır. Türk dövlətləri ölkələr arasında yaxınlaşmanın, inteqrasiyanın inkişaf etməsində ciddi rol oynayıb və bundan sonra töhfələrini verəcəkdir.

Məlumdur ki, müasir dövrümüzdə bu təşkilat beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir. Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi haqqında qərar da məhz Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunmuşdu. Azərbaycanın qədim mədəniyyət ocaqlarından biri olan Şuşa şəhərinin 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunması əlbəttə ki, qürurvericidir. TÜRKSOY tərəfindən Şuşanın 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsi Türk-İslam dünyasının Azərbaycanın qədim şəhərinin mədəni zənginliyinə diqqətinin göstəricisidir.

Dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən türk dövlətləri birliyi qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında müasir dövrümüzdə daha da möhkəmlənib. Əlaqələrinin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün artıq nümunədir.

***Zümrüd BAYRAMOVA***



# Həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimi keçirilib

***Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Mühafizə alayında ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi ədliyyə general-mayoru Mirsaleh Seyidovun iştirakı ilə həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Nazirliyin Mətuat xidmətindən SİA-ya verilən xəbərə görə, Dövlət Himni səsləndirildikdən sonra Dövlət Bayrağı hərbi marş sədaları altında meydanın mərkəzinə gətirilib, şəhidlərin abidəsi önünə gül dəstələri qoyulub, onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***





Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ədliyyə sahəsində həyata keçirilən uğurlu islahatlar, o cümlədən, Mühafizə alayının öz vəzifələrini bu gün də layiqincə icra etdiyi qeyd olunub.

Ədliyyə naziri III dərəcəli dövlət ədliyyə müşaviri Fərid Əhmədovun təbrik və tövsiyələri gənc əsgərlərin diqqətinə çatdırılıb.

Vətənə, xalqa və dövlətə sədaqət andı içən gənc əsgərlər Ali Baş Komandanın əmrinə hər zaman hazır olduqlarını, nizam-intizamı qoruyacaqlarını bildiriblər.

Sonda şəxsi heyətin marş sədaları altında təntənəli keçidi izlənilib.

# Dünya necə yarandı? - Yeni elmi versiya ortaya çıxıb

***Bu mövzuda Pravda qəzetində dərc olunmuş elmi məqaləni oxucualrımıza təqdim edirik.***

Kainatın yaranmasından əvvəl nə olduğu sualı həmişə qızğın müzakirələrə səbəb olub. Eynşteynin tənliklərinə əsaslanan standart kosmologiya təkliyə- sıxlığın və temperaturun sonsuza çevrildiyi bir vəziyyətə qarşı çıxır. Lakin müasir ədədi nisbilik nəzəriyyəsi bu suala cavab vermək üçün yeni imkanlar açır.

## Ədədi nisbilik nəzəriyyəsi nədir?

Eynşteynin tənlikləri maddənin və enerjinin məkan-zamanı necə əydiyini təsvir edir. Problem ondadır ki, bu tənliklər son dərəcə mürəkkəbdir və əksər hallarda - məsələn, qara dəliklər toqquşduqda - analitik həll mümkün deyil.

Fiziklər fərqli bir üsuldan istifadə edirlər:

Məkan və zaman bir şəbəkəyə bölünür;

Hər bir hüceyrəyə tənliklər daxil edilir;

Superkompüterlər sistemin təkamülünü addım-addım hesablayırlar.



2015-ci ildə LIGO detektoru tərəfindən təsdiqlənmiş qravitasiya dalğalarının ilk dəqiq modelləri beləcə ortaya çıxdı.

## İlkin kainatı niyə modelləşdirməliyik?

Kosmologiyada nisbilik nəzəriyyəsi bizə "hamar" Kainat haqqında sadələşdirilmiş fərziyyələrdən imtina etməyə imkan verir.

Alimlər bunu modelləşdirə bilərlər:

-Xaotik qeyri-bərabərlik;

-Güclü qravitasiya sahələri;

-Hətta Böyük Partlayışdan sonrakı ilk anlarda qara dəliklərin meydana gəlməsi.

Bu, əsas fərziyyələri sınamağa kömək edir- məsələn, kosmik inflyasiyanın həqiqətən mövcud olub-olmaması, onun nə qədər davam etməsi və nəticənin simmetriyadan çox, sahələrin formasından nə dərəcədə asılı olması.

## Mikroskop altında kosmik inflyasiya

İnflyasiya nəzəriyyəsi kosmosun niyə bütün istiqamətlərdə eyni göründüyünü izah edir. Lakin onun modellərinin əksəriyyəti inflyasiyanın özünün yaratmalı olduğu ilkin hamarlığı nəzərdə tutur. Rəqəmsal hesablamalar bizə "əsl xaosdan" başlamağa və inflyasiyanın hər halda kainatı hamarlaşdıra biləcəyini görməyə imkan verir.

Bu, ədalətli sınaqdır: inflyasiyanın başlamadığı və ya əvvəllər düşünüldüyündən fərqli şəkildə inkişaf etdiyi mümkün ssenarilər var.



## Tanış Kainatın kənarında

Ədədi nisbilik nəzəriyyəsi təkcə məkanımızı öyrənməyə kömək etmir, həmçinin aşağıdakıları öyrədir:

-kosmik simlər - qravitasiya dalğaları buraxmağa qadir olan hipotetik qüsurlar;

-multiverse - kosmik mikrodalğalı fonda izlər buraxa bilən müxtəlif vakuum enerjiləri ilə kosmik qabarcıqların toqquşması.

Bu gün modellər bizə bu fikirləri müşahidələrlə yoxlanıla bilən proqnozlara çevirməyə imkan verir.

## Texniki çətinliklər

Alimlər bir sıra problemlərlə üzləşirlər:

-kainatların genişlənməsi üçün sabit sərhəd şərtlərinin tapılması;

-ərazilərin dağılması zamanı "çökməyən" koordinat sistemlərinin inkişafı;

-müxtəlif qruplar arasında əlaqələndirilmiş hesablamalar üçün ümumi alətlərin yaradılması.

Superkompüterlərin gücü tək amil deyil. Yeni formulalar, konvergensiya testləri və dəqiq diaqnostika üsulları vacibdir.

## Böyük Partlayışdan əvvəl nə var idi?

Tam relativistik modellər tanış mənzərədən kənara "baxmaq" imkanı verir. Tədqiqatçıların nəzərdən keçirdiyi variantlar:

-təklik nöqtə deyil, salınan vəziyyət ola bilər;

-yeni fizika "sonu" kosmik sıçrayışa çevirə bilər;

-maddənin qarşılıqlı təsiri və kosmosun əyriliyi Kainatın keçmişinin riyazi sonsuzluğa qədər yoxa çıxmadığı mürəkkəb ssenarilərə səbəb ola bilər.

Müasir ədədi nisbilik nəzəriyyəsi Eynşteynin mücərrəd tənliklərini dünyanın mövcudluğunun saniyəsinin ilk fraksiyaları haqqında fərziyyələri yoxlamaq üçün alətə çevirir. Bu gün ilk dəfə olaraq elə bir vəziyyətə yaxınlaşırıq ki, "Böyük Partlayışdan əvvəl nə var idi?" sualının yalnız fəlsəfi olmağını dayandırır və yoxlanıla bilən elmin bir hissəsinə çevrilir.

***Tərcümə - Elçin Bayramlı***

# Ərzaq istehsalını artırmaq və idxalı azaltmaq üçün nə etməli?



***Dünya yeni ərzaq böhranı dövrünə qədəm qoymaqdadır. Ərzaq məhsullarının qiyməti durmadan bahalaşır. Buna qlobal iqlim dəyişmələri və quraqlıq səbəbindən istehsalın azalması səbəb olur. Artıq Azərbaycan da daxil olmaqla bir sıra ölkələrin əhalisi bundan ciddi zərər çəkməkdədir.***

Qlobal ərzaq qıtlığı problemi ən çox idxaldan asılılığı çox olan ölkələri təhdid edir. Azərbaycanda da zəruri tələbat məhsullarının təxminən yarısı idxal hesabına formalaşır. Nəticədə, dünyada həmin məhsulların bahalaşması ölkəmizdə də bahalaşmaya səbəb olur. Son dövrdə ərzaq məhsullarında qiymət artımları tendensiya halını alıb.

İndi azad bazar dövrü olduğundan hökumət qiymətləri tənzimləyə bilməz və bu səbəbdən bunun qarşısını inzibati metodlarla almaq çətindir. Bu problemin həlli yolu ölkədə ərzaq istehsalının yüksəldilməsi və idxaldan asılılığın ləğv edilməsindən keçir.

Bazar iqtisadiyyatının və qiymət liberallaşmasının özünün qanunauyğunluqları var. Hökumətin qiymətin artmasının qarşısını yox, qiymətin dəyişməsi prosesi zamanı əhalinin rifahını qorumaq, alıcılıq qabiliyyətini təmin etmək, yəni, heç olmasa, sosial müdafiəyə ehtiyacı olan təbəqələrin vəziyyətinin pisləşməsinin qarşısını almaq üçün tədbirlər görməsi vacibdir. Dövlət büdcəsindən maaş və pensiya alan vətəndaşların gəlirləri artsa da, özəl sektorda və fərdi çalışanların gəlirləri artmayıb.

İnzibati üsullarla qiymət tənzimlənməsi o zaman mümkündür ki, ölkədə məhsul bolluğu var və qiymət artımı süni inhisarçılıq hesabına yaranıb. Amma hazırda qiymət artımlarının baş verməsi əsasən, xarici amillərin hesabına mümkün olur. Ölkədə istehsal olunan, amma əhalinin tələbatını ödəməyən məhsulları özəl şirkətlər və sahibkarlar idxal edirlər. Onlar da hər hansı malı baha aldıqda, baha da satmalıdırlar.

Kimisə hər hansı məhsulu xaricdən gətirib öz qiymətinə satmağa məcbur etmək olmaz. Bu vəziyyətdə dövlət aztəminatlı təbəqələr üçün güzəştli siyasət yürüdə bilər. Hökumət sosial və iqtisadi mexanizmlərlə bu prosesə təsir edə bilər, ancaq inzibati vasitələrlə heç nə etmək mümkün deyil.

Qiymət artımında xarici amillərin təsir payı böyük olsa da, daxili amillərin də təsiri olmamış deyil. Bunlardan bəzi istehsal və idxal sahələrində inhisarçılığı və yerli məhsulda qiymət artımını şərtləndirən stimullaşdırıcı tədbirləri göstərmək olar. Əgər ölkədə enerji daşıyıcılarının və suyun qiyməti bahalaşırsa, maya dəyərinin bundan asılı olduğu məhsulların qiymətinin artması təbiidir.

Qiymət artımında daha bir əsas amil də inhisarçılıqdır ki, nəticədə bazara süni təzyiqlər artır və mümkün ucuzlaşmanın da qarşısı alınır. Bahalaşma zamanı əhalinin alıcılıq qabiliyyəti getdikcə aşağı düşdüyündən, maya dəyəri baha başa gələn keyfiyyətli məhsulun əvəzinə bazara ucuz və keyfiyyətsiz, hətta saxta məhsullar çıxarılır.

Ərzaq təhlükəsizliyi üzrə xüsusi proqram həyata keçirən ölkələrdə xarici amillərin mümkün təsirlərindən maksimal sığortalanma asan olur. Belə ölkələrdə əsas tələbat malları ölkənin özündə istehsal olunur və bu da xarici amillərin təsirlərini minimuma endirir.

Kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun hətta bazar qiymətinə alınacağı haqda öncədən müqavilə



bağlanır.

Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, möhtəkirliyin aradan qaldırılmasını və anti-inhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə bahalaşmanın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar.

Nəzərə alsaq ki, Azərbaycan özünü kənd təsərrüfatı malları tam təmin etmək gücündədir və digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlim, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Azərbaycanda aqrar sektorun inkişafına milyardlarla manat vəsait ayrılır. Dövlət dotasiyalar, subsidiyalar verir, müxtəlif güzəştlər, yardımlar tətbiq edir. Bu sahədə müəyyən naliyyətlər əldə olunub, lakin hələ də potensialımızdan xeyli aşağı göstəricilərə sahibik. Deməli, qəbul olunan dövlət proqramlarının icrası effektli aparılmayıb və bu məsələyə daha ciddi diqqət verilməlidir.

Aqrar sektorun konseptual inkişafı üçün böyük bir dövlət proqramına ehtiyac duyulur. Buraya ərzaq təhlükəsizliyi də daxildir. Ərzaq təhlükəsizliyi həm də kənd təsərrüfatının inkişafı ilə bağlıdır. Kənd təsərrüfatı isə yeyinti sənayesi və yüngül sənayenin inkişafı üçün birbaşa mənbədir.

Dünya standartına görə, gəlirinin 30 faizini ərzağa xərcləyən insanlar yoxsul hesab olunur. Azərbaycanda əhali öz gəlirlərinin təxminən 50 faizindən çoxunu ərzağa xərcləyir. Bu isə dünya normasından yüksəkdir.

Qarşıdan qlobal ekoloji problemlər (quraqlıq, su çatışmazlığı və s) və ərzaq qıtlığı gəlir. Belə bir şəraitdə aqrar sektorun inkişafı ən prioritet məsələyə çevrilməlidir. Bu sahədə xüsusi geniş dövlət proqramının qəbul olunması və kompleks tədbirlərin görülməsi vacibdir.

***Elçin Bayramlı***

# Ömrümüz internetdə, günümüz smartfonda tükənir

## Virtual asılılıq bizim sağlamlığımız üzərində hökmranlıq edir



Dövrümüzdə bütün yaş kateqoriyalarından olan insanın internet, smartfon, planşet, kompüter kimi məlumat və əyləncə mənbələrindən uzaq durması mümkün deyil. Əvvəl yuxarı yaşlarda rastlanan internet asılılığı indi uşaqlar və körpələrdə də çox müşahidə edilir. Evdə və ya işdə, ictimai nəqliyyatda gedərkən telefon əlində olan insanların sayı sürətlə artır. Əvvəl ictimai nəqliyyatda, parklarda qəzet-kitab oxuyan insanları az da olsa görmək olurdu, amma indi kitabı, qəzeti də telefondan oxuyuruq. Asılılığımız hər gün artır. Əgər telefonun tez-tez xəbərdarlıq siqnalı verirsə, başqa işlərin olsa da sosial şəbəkələrdə gəzirsənsə, işin heç vaxt bitmirsə, gözün, qulağın daim telefonda, kompüterdədirsə, deməli, sən də internet asılılığından əziyyət çəkirsən.

İşi asanlaşdırmaq və məhsuldarlığı artırmaqla yanaşı, kompüterlə, smartfonlar tədricən gündəlik həyatın müxtəlif sahələrinə tamamilə nüfuz etdi, hətta parçalarımlandı desək daha doğru olar. Bu texnologiya vasitəsi ilə məlumat əldə etmək, paylaşmaq kimi faydalı işlər görmək olur, lakin o həyatımıza bir çox problem də daxil edib. İnternet, smartfon asılılığı onun insana, ətrafına və münasibətlərinə zərər verməyə başladı. Vəziyyət o həddə çatıb ki, mütəxəssislər kompüter-telefon asılılığını narkomaniyaya bənzədirlər.

Uzun müddət kompüterdən istifadə edən insanlar narkomanların zərərli maddələrdən olan asılılığına bənzər bir vəziyyətdə olurlar. İnternet aludəçiləri uzun müddət internetə girə bilmədikdə, gərginlik, əsəbilik, narahatlıq, nə edəcəklərini bilməmək kimi davranışlar göstərə bilərlər. Zaman keçdikcə kompüter qarşısında daha uzun müddət qalmaq istəyirlər, internetə baxa bilmədikləri müddətcə fikirləri daim internetdədir, hər fürsətdə telefonda, kompüterdə interneti gəzmək onları rahatladır, treslərini azaldır. Bu asılılığın zərərini görsələr də bu vəziyyətdən yaxa qurtara bilmirlər. Bu cür insanlar adətən uzun müddət kompüterlə məşğul olduqlarını, internetdə çox vaxt itirdiklərini, telefonsuz qala bilmədiklərini inkar edirlər, vəziyyətlərinin kritik olduğunu qəbul etmirlər.

### Problemləri həll etmək yerinə internetdə gəzişirik

Bir çox insan gündəlik problemlərindən xilas olmaq, tənhalığını unutmaq, narahatlıq və depressiv hisslərini yatırtmaq üçün internetdə vaxt keçirməyi çarə bilir. İnternetdə vaxt itirdikcə diqqət dağılır, fərqli istiqamətlərə bölünür və dolayısı ilə şəxsi qayğılarını unutmağa, narahatlığının azalmasına və rahatlıq hiss etməyə səbəb olur. Ancaq bir müddət sonra istirahət üçün istifadə edilən internet insana zərər verməyə başlayır. Şəxsi həyatında problemlər üst-üstə yığılıb, amma insan onları həll etmək yerinə onlardan qaçır, internetdə vaxt öldürür və beləcə həyatının səhvini edir.

Xüsusilə depressiv şikayətləri olan insanlar asanlıqla internet aludəçisi ola bilirlər. Depressiyanın yaratdığı pessimizm, narahatlıq internetdə vaxt keçirərkən unudulsa da sosial izolyasiya, özünü təcrid, təklik depressiyanın dərəcəsini daha da artırır. Narkotik, alkoqol, qumar kimi asılılığı olan insanlarda müşahidə olunan davranışlar xüsusilə depressiv internet asılısı insanlarda da müşahidə edilir.

### Asılı olduğumuzu necə anlayaq?

Əslində, çox insan internet asılısı olduğunu qəbul etmək istəmir, lakin müşahidələr və əlamətlərə görə az da olsa bunu etiraf edənlər var. Ümumiyyətlə, hansı əlamətlərə görə internetdən asılı olduğumuzu anlaya bilərik? Birinci əlaməti gərəksiz halda uzun müddət onlayn qalmaqdır. Şəxsi işlərin daim gün sonuna saxlanması və ya növbəti günə qalması da internetdə çox vaxt keçirənlərin problemidir. Yeməklər ayaqüstü qidalanmaya keçir, daha rahat başa gələn qidalar qəbul edilir, yuxu minimuma enir, həmçinin yuxu rejimi anormal olur.

Başqa bir əlamət də internetdə çox vaxt keçirdiyinizə dair ailə üzvlərinin iradlarını qəbul etməmənizdir. Onlayn söhbət, dostluqlar, real ünsiyyətdən çox olduqda artıq virtuallaşdığınızı qəbul edin. Kədərlənəndə, darıxanda ailə üzvlərinizlə, dostlarınızla söhbətləşmək yerinə online olmaq istəyəndə də asılı olduğunuzu etiraf etmiş olursunuz. Özünüzə vaxt məhdudiyyəti qoya bilmirsinizsə, yuxu, qidalanma rejimi pozulubsa, piylənmə, bel, boyun, bilək ağrılarından əziyyət çəkirsinizsə, etiraf edin, siz internetdən asılısınız.

### İnternetdən necə yaxa qurtarmalı?

Əvvəlcə insanı internetdə "yatıb-durmağa" vadar edən səbəb müəyyən edilməlidir. Daha sonra özünüzə iş və mükafat sistemi qura bilərsiniz, həllini gözləyən problemləri aradan qaldırıb bunun müqabilində özünüzə internetdə vaxt keçirmək üçün müddət hədiyyə edin və həmin müddət bitdikdə internetdən ayrılmağı bacarın. Hər axşam eyni vaxtda kompüterinizi və ya mobil telefonunuzu "ofline" rejimə keçirin. Yalnızlıq hissini aradan qaldırmaq üçün internetdə vaxt keçirmək yerinə kitab oxumaq lazımdır, ailə üzvləri və ya dostlarla canlı söhbətə üstünlük verilməlidir.

Kompüter vasitəsilə ünsiyyət həmişə sizi emosiyadan məhrum edəcək, smartfondan asılı qalmaq insani hisslərinizi qətl edəcək. Ona görə də internetdə, kompyuter önündə, əlinizdəki smartfonda vaxt itirərkən həyatınızdan nəyi qurban verdiyinizi düşünməlisiniz. Övladınızla, dostunuzla parkda yarım saat gəzmək və ya həyat yoldaşınızla söhbətləşərək birlikdə çay içmək sizin psixoloji sağlamlığınız üçün daha vacibdir. Kompyuteri və telefonu yataq otağınızdan uzaq saxlayın, ümumiyyətlə yataq otağına televizor qoyulması belə yuxu rejiminin pozulmasına səbəb olur.

İnsan, kompüterdən və ya telefondan bu qədər uzun müddət istifadə etməzdən əvvəl bu həzzin onun sağlamlığından nələri apardığını fikirləşməlidir. Unutmaq olmaz ki, zaman çox qiymətlidir, axıb gedərkən bizim sağlamlığımızdan da bir çox şeyi özü ilə aparır.

***Lalə Mehralı***

# Qanlı cinayət - Ballıqaya qətliamı

***Azərbaycan xalqı ermənilər tərəfindən bütöv bir əsr boyu soyqırıma məruz qalmışdır. Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri terrorçuluq, işğalçılıq, soyqırımı bunu təsdiqləyir. Tarixə diqqət etsək görərik ki, iki yüz ilə yaxın bir dövrdə təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı yeridilən soyqırımı siyasətinin acı nəticələrini yaşamışıq. Tarix təkrarlanıb. Azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq məqsədi ilə ideyalarının reallaşdırmağa can atıblar. Ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçiriblər. İyirminci yüzillikdəki tarixi yolumuza nəzər salaq görərik ki, 1905-1907, 1918-1920, 1948-1953 və 1988-ci ildən baş verənlər erməni faşizminin xalqımıza qarşı olan çirkin niyyətlərinin göstəricisidir.***




Erməni qəsbkarlarının Azərbaycan xalqına qarşı həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində minlərlə soydaşımız qətlə yetirilib, yüz minlərlə insan doğma yurdundan didərgin salınıb. Ermənistan silahlı qüvvələrinin XX əsrin 90-cı illərində azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlərdən biri də Ballıqaya qətliamıdır. Erməni quldurları tərəfindən törədilən bu faciə Xocavəndin Qaradağlı kəndində, Xocalı şəhərində, Kəlbəcərin Ağdaban kəndində azərbaycanlı əhalisini kompakt şəkildə məhv etmək məqsədi ilə həyata keçirilən silsilə kütləvi qırğınlardan biridir.

### 6 AZYAŞLI UŞAQ VƏ 6 AYLIQ KÖRPƏ

1992-ci il avqustun 27-dən 28-nə keçən gecə erməni quldurları Laçın rayonundan məcburi köçkün düşən və Goranboy rayonunun Ballıqaya kəndində müvəqqəti məskunlaşmış 24 azərbaycanlı mülki şəxsi amansızlıqla qətlə yetirib, 9 nəfəri yaralayıblar. Qətlə yetirilənlərin arasında 6 azyaşlı uşaq, o cümlədən 6 aylıq körpə də olub, 3 azyaşlı uşaq hər iki valideynini itirib. Öldürülmüş dinc insanların bəzilərinin meyitləri yandırılıb. Ballıqayada 93 yaşında qoca qadına da aman verilməyib. Öldürülənlərin əksəriyyəti uşaqlar, qadınlar və qocalar olub. Qətlə yetirilən və ağır bədən xəsarəti alan şəxslərin hamısı heyvandarlıqla məşğul olan mülki şəxslər, çobanlar və onların ailə üzvləri idi.

Bu qətliam zamanı beynəlxalq humanitar hüquq normaları kobud şəkildə pozulub. Bütün beynəlxalq hüquq normalarına və bəşəri dəyərlərə zidd olaraq mülki insanlar - azyaşlı uşaqlar, qadınlar və qocalar qətlə yetirilib. Ballıqaya qətliamı ilə bağlı materiallar, maddi sübutlar və faktlar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Memorial Soyqırımı Muzeyində saxlanılır.

Ballıqaya qətliamı zamanı erməni quldurları 33 yaşlı Hürzaman Hümbətovanı 6 azyaşlı övladı ilə birlikdə qətlə yetirərək yandırıblar. Ballıqayada qətlə yetirilmiş şəxslərdən bəziləri Bərdə rayonunun Qaradəmirçi, Alpout, Tumaslı və Nazırlı kəndlərində dəfn edilib. Ermənilər tərəfindən törədilən faciələr, o cümlədən Ballıqaya qətliamı xalqımızın yaddaşından heç vaxt silinməyəcək.Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində xalqımız misli görünməmiş faciələr yaşamışdır. 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğın Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqının dinc həyatına ağır zərbələr vurmuşdur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırımı və deportasiya siyasəti Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini göstərmiş olur. Mart hadisələri - Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir. 1992-ci ilin Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri kimi yazıldı.

### 21-İ AHIL VƏ QOCA OLARAQ ÖLDÜRÜLDÜ

1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən Qaradağlı qətliamı da Qarabağ münaqişəsi zamanı baş vermişdir. Nəticədə, xeyli sayda mülki azərbaycanlı şəxslər ermənilər tərəfindən qətlə yetirilmiş, bir o qədər də əsir alınmışdır. 117 nəfər əsir alınmış, 66-90 nəfər mülki şəxs isə qətlə yetirilmişdir. Öldürülənlərdən 21-i ahıl və qocalar, 10-u qadın, 8-i məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb. Tariximizdə belə hadisələr kifayət qədərdir.

Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş Komandanın siyasi iradəsi, dövlətimizin gücü, rəşadətli ordumuzun dönməzliyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı. 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsində Zəfər qazandıq. İşğal altında olan torpaqlarımız düşməndən azad olundu. 44 günlük müharibə dövründə də erməni vandallığının, terrorunun acılarını da yaşadıq. Vətən müharibəsi dövründə dinc insanlara, mülki əhaliyə qarşı etdikləri əməllər, işğaldan azad olan torpaqlarımızı tərk edərkən törətdikləri yanğınlar erməninin faşist ideologiyasının təzahürüdür. Ermənistanın ötən əsrin 90-cı illərində olduğu kimi, Vətən müharibəsində də törətdikləri terrorçuluq dünyanın nüfuzlu nəşrlərində və sosial şəbəkələrdə yer aldı. Ermənistanın beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə aldı.

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsi Zəfərimizi şərtləndirdi. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu nümayişi oldu. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusu Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunun təzahürüdür. Əlbəttə ki, Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızı işğaldan azad etdi. Xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanın qalib dövlət kimi adını tarixə yazıb.

***Zümrüd BAYRAMOVA***

# Gənc həkim-rezidentlərimiz bilik və bacarıqlarını artıraraq peşəkarlıq yolunda inamla addımlayırlar

***Anesteziologiya, Əməliyyatxana və Reanimasiya şöbəsinin ağır xəstələrinə həkim-rezidentlər fədakarlıqla qayğı göstərir, onların sağalması üçün gecə-gündüz mübarizə aparır və hər gün öz bilik və bacarıqlarını təkmilləşdirirlər. 2024-cü ilin oktyabrında rezidentura təhsilinə başlayan gənc həkim-rezidentlərimiz bu gün artıq möhkəm bilik və bacarıq təməli ilə fəaliyyətlərini inamla davam edirlər.***

Mərkəzi Gömrük Hospitalının rəisi - Baş həkim, t.e.d. Bəxtiyar Musayevin və Anesteziologiya, Əməliyyatxana və Reanimasiya şöbəsinin rəsi Dr.Tural Sadıqov, anesteziolоq-reanimatoloqlar: Dr.Mehdi Əliyev, Dr.Rəşad Nəsirli, Dr. Könül Həsənova, Dr.Şahin Mazanov, Dr.Xəyal Məmmədov və Dr.Sevda Quliyevanın rəhbərliyi, yuxarı kurs rezidentlərin dəstəyi ilə il öz təcrübələrini zənginləşdirir və gələcəyin yüksəkixtisaslı həkimləri kimi formalaşırlar.









Fədakar anestezioloq-reanimatoloqlarımıza və yuxarı kurs rezidentlərimizə gənc həkimlərə göstərdikləri dəyərli mentorluğa görə ürəkdən təşəkkür edirik. Birinci ilini uğurla tamamlayan gənc rezidentlərimizi təbrik edir və qarşıdakı illərdə daha böyük uğurlar arzulayırıq!

# “Biz uğur hekayəsini nümayiş etdiririk”



“Azərbaycan cəmiyyətində bütün məzhəblərdən olan müsəlmanlar bir ailə kimi yaşayırlar. İslamın müxtəlif qolları arasında heç bir ayrı-seçkilik olmayıb”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının ”Əl-Ərəbiyyə” telekanalına müsahibə verərkən, Ona ünvanlanan ”Azərbaycan sünni və şiə icmaları arasında yaxşı münasibətlərin qurulması istiqamətində hər hansı bir addım ata bilərmi” sualını cavablandırarkən bildirib: ”Siz tamamilə haqlısınız. Bu, bizim təcrübəmizə əsaslanır, təkcə şüarlara, bəyanatlara əsaslanmır. Çünki çoxlu bəyanatlar verilə bilər, lakin siz məsələnin məğzinə, Azərbaycanda bu məsələlərin necə həll olunduğuna baxmalısınız. Bizim üçün, ilk növbədə, milli, etnik kimlik gəlir. İkincisi, vətəndaşlıqdır. Yaxud ola bilər ki, vətəndaşlıq birinci, etnik kimliklə yanaşıdır. Azərbaycanlıların mütləq əksəriyyəti üçün məzhəb məsələsinin ümumiyyətlə yeri yoxdur, heç 100-cü yerdə də deyil. Azərbaycanlılar etnik qrup kimi İslamın müxtəlif qollarından olan nümayəndələrdən ibarətdir. Lakin biz hamımız etnikliyimizlə, dilimizlə və dövlətimizlə birləşmişik. Təkcə müsəlmanlar deyil, Azərbaycanda digər dinlərin nümayəndələri də özlərini eyni cür hiss edirlər”.



Çağdaş dünyamızın aparıcı güc mərkəzləri, bəzi iddialı ölkələr insan hüquqları, din azadlığı anlayışından öz geosiyasi, geoiqtisadi maraqlarını təmin etmək üçün bir vasitə kimi istifadə edirlər. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı ilk növbədə çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Dünyanın diqqətində olan ölkəmizdə - Azərbaycanda isə nümunəvi dövlət-din münasibətləri uğurla həyata keçirilir və tolerant mühit hökm sürür. Əlbəttə ki, mövcud vəziyyət, dövlət siyasəti bəşəri dəyərlər sisteminə, xüsusilə beynəlxalq təhlükəsizliyə qarşı yaranmış təhdidlərin qarşısının alınmasında çox önəmli strategiyaya çevrilib. Dini dözümlülük, tolerantlıq kimi dəyərlər Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Əsas Ana Qanunumuzda irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi mövqeyindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyi nəzərdə tutulmuş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının göstərilən əsaslara mənsubiyyətinə görə məhdudlaşdırılması qadağan edilib. Ölkəmizdə yaşayan qeyri-xalqların nümayəndələri ilə xalqımızın əmin-aman şəraitdə yaşaması, birlik, həmrəylik nümayiş etdirməsi şübhəsiz ki, əsrlərin sığından çıxan dəyərlərdən qaynaqlanır. Ölkədə formalaşan bu və ya digər dəyərlər artıq Azərbaycan cəmiyyətini səciyyələndirən ənənəyə çevrilib. ”İnsanların sülh içərisində, xoşbəxt yaşamağa, öz övladlarını böyütməyə və işləməyə, başlarına bomba düşəcək, yaxud kimsə yaşadığı yerə bomba qoyacaq deyə qorxularının olmamasına ehtiyacları var”, - deyə Azərbaycan Prezidenti bildirib.

## ”BİZ GÖSTƏRİRİK Kİ, BURADA SÜLH, SABİTLİK VƏ RAHATLIQ MÖVCUDDUR”

Azərbaycan müstəqillik illərində dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Təbii ki, tolerant mühitin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, ədalətin bərqərarı deməkdir. ”Müstəqillik dövründə bu sahədə gördüyümüz işlər həmin müsbət tendensiyaları gücləndirməkdən ibarət olub. Azərbaycan şiə və sünni müsəlmanların eyni vaxtda eyni məsciddə ibadət etdikləri az sayda ölkələrdən biridir. Biz fərq qoymuruq. Biz düşünürük ki, müsəlman dünyası üçün ən böyük təhlükə məzhəblərə ayrılmaqdır. Müsəlman dünyasına ən böyük ziyanı məzhəb ayrılığını təbliğ edən insanlar vururlar. Biz bir olmalıyıq. Biz müsəlmanıq və bizim üçün bir nömrəli məsələ budur. İstənilən xarici müdaxilədən tamamilə azadıq. Çünki biz təkcə dəyərlərimizi təbliğ etmirdik, biz, həmçinin ideoloji cəhətdən özümüzü istənilən növ müdaxilədən, müsəlmanlar arasında nifrət toxumu səpmək cəhdlərindən qorumalı idik. Bu, müsəlman dünyasında yüksək qiymətləndirilir. Mənim müsəlman dövlətlərinin aparıcı dini rəhbərləri ilə keçirdiyim çoxsaylı görüşlər onu göstərir ki, İslam dünyasında istər siyasi olsun, istər dini sahədə bizim rolumuz yüksək qiymətləndirilir. Biz göstəririk ki, bu mümkündür və biz uğur hekayəsini nümayiş etdiririk. Biz göstəririk ki, burada sülh, sabitlik və rahatlıq mövcuddur. İnsanların məhz buna ehtiyacı var”, - deyə Azərbaycan Prezidenti müsahibəsində bildirib.

Azərbaycanda yaşayan milli azlıqlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, ”Saxur” Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, udilərin ”Orayin” Mədəni Mərkəzi, tatların ”Azəri” Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatarlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti, Azərbaycan Yəhudiləri Cəmiyyəti, Axıska türklərinin Vətən Cəmiyyəti və s. nümunə göstərmək olar. Təsadüfi deyil ki, azsaylı xalqların zəngin musiqi folkloru Azərbaycanın mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Azərbaycanın ənənəvi ”Musiqi Atlası” layihəsi Azərbaycan musiqi folklorunun rəngarəng dialektlərini də əhatə edir.

Bütün xalqların dini-mədəniyyət abidələri dövlətimiz tərəfindən qorunur. Şəki rayonunun Kiş və Qəbələ rayonunun Nic kəndlərindəki kilsələr, Qax rayonu ərazisində xristian kilsəsi, Masallı rayonunun Ərkivan kəndində XIX əsr məscidi və s misal göstərmək olar.

## AZƏRBAYCANIN ƏN BÖYÜK SƏRVƏTİ - ETNİK MÜXTƏLİFLİYİ

Çətin, ağır, eləcə də xoş günlərdə də bütün xalqların nümayəndələri bir-birinin yanındadırlar. Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri Ermənistanın 2020-ci il iyul ayının 12-dən etibarən, Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Bununla bağlı Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri birgə bəyanat yaydılar. Belə ki, Talış Mədəniyyət Mərkəzi, Azərbaycanda Rus İcması, Azərbaycan-Avar İcması İctimai Birliyi, Bakı Dağ Yəhudiləri Dini İcması, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcması, Avropa Yəhudilərinin Bakı Dini İcması və digər icma rəhbərləri təmsil etdikləri Azərbaycan xalqları adından Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Həmin təcavüz aktları nəticəsində Azərbaycanın ondan çox hərbi qulluqçusu, o cümlədən yüksək rütbəli zabitlər və bir dinc sakini həlak olmuşdur. Milli ordumuzun sıralarında Azərbaycanda yaşayan xalqların yüzlərlə nümayəndələri - əsgər və zabitləri var. Vətən Müharibəsi dövründə müxtəlif xalqların övladları da Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin çağırışına səs verərək, könüllü olaraq orduda xidmət etmək, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, torpaqlarımızı mənfur düşməndən təmizləmək istəyi ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdilər. Azərbaycanda elə bir xalq yoxdur ki, bu müqəddəs amal uğrunda mübarizədə şəhid verməsin. Ermənistan dəfələrlə Azərbaycanda yaşayan xalqların içərisinə ədavət toxumu səpməyə, süni qarşıdurma yaratmağa çalışmış, lakin öz mənfur niyyətinə nail ola bilməmişdir. Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan bütün xalqların tarixi birliyi və qardaşlığıdır. Ölkəmizdə indiyədək etnik və dini zəmində qarşıdurmaların baş verməməsi Azərbaycanın yürütdüyü milli siyasətin parlaq təzahürüdür.

## ”MÜSƏLMANLAR HƏMRƏY OLMALIDIRLAR VƏ MƏZHƏBLƏRƏ BÖLÜNMƏ BİZİM BİRLİYİMİZ ÜÇÜN TƏHLÜKƏDİR”

Son illər qloballaşan dünyamızda müxtəlif bölgələrdə dini radikalizm, terrorizm, dözümsüzlük və ksenofobiya kimi halların artdığı dövrdə Azərbaycanda bütün dinlərin nümayəndələr sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Hər bir dinin nümayəndələri rahat yaşayır, milli bayramlarını qeyd edir, öz dilində təhsil almaq imkanına malikdirlər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər: ”Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub-saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub-saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir”.

Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilən tədbirlər ölkəmizin beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, xalqımızın milli həmrəyliyini daha da möhkəmləndirir və ölkəmizi mədəniyyətləri qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir. Bu gün Azərbaycan dünyada azlıq və ya çoxluğun fərqinin hiss edilmədiyi ölkələr sırasında ilk yerlərdən birində qərarlaşmışdır. Azərbaycan dövlətinin apardığı milli siyasət göstərir ki, xalqlar bir-biri ilə mehriban yaşaya bilərlər və bu baxımdan ölkəmiz dünyaya nümunədir.

Son illər ərzində Azərbaycan dini, milli və etnik tolerantlıq sahəsində böyük uğurlara nail olub. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirib.

Biz mədəniyyətlərarası dialoq sahəsində də bir çox işlər görürük. Biz hər iki ildən bir müntəzəm olaraq mədəniyyətlərarası dialoq üzrə beynəlxalq konfranslar keçiririk. Biz həmin konfranslarda bütün mühüm məsələləri, - təkcə müsəlmanlar üçün deyil, bütün dinlər üçün mühüm əhəmiyyət kəsb edən məsələləri, - müzakirə edirik. Bu baxımdan bizim rolumuz əsasən burada gördüyümüz işlərə və bunu başqa yerlərdə də necə edə bilərik düşüncəsinə əsaslanır. Hesab edirəm ki, indi müsəlman ölkələrinin mütləq əksəriyyətinin siyasi dairələrində, - mənim prezidentlər arasında bir çox əlaqələrim var, - hamı başa düşür ki, müsəlmanlar həmrəy olmalıdırlar və məzhəblərə bölünmə bizim birliyimiz üçün təhlükədir”, - deyə Azərbaycan Prezidenti müsahibəsində də bildirib. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkədir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Ukrayna mətbuatı Prezident İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına müsahibəsini geniş işıqlandırıb


UA | EN | RU
РБК-УКРАЇНА
СР, 27 АВГУСТА | НОВОСТИ | АНАЛИТИКА | ПОЛИТИКА | БИЗНЕС | ЖИЗНЬ
ВСТРЕЧА ЗЕЛЕНСКОГО И ПУТИНА | МИРНЫЕ ПЕРЕГОВОРЫ | ВОЙН

"Наша позиция однозначна": Алиев поддержал территориальную целостность Украины

СРЕДА 27 АВГУСТА 2025 16:09
UA EN RU

***Ukraynanın aparıcı mətbu orqanları Azərbaycan Prezidenti İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına müsahibəsini geniş işıqlandırıb. SİA xəbər verir ki, "RBK-Ukrayna", "Korrespondent" "Gordon" və digər xəbər portallarında nəşr edilən məqalələrdə Azərbaycan Prezidentinin müxtəlif mövzularda fikirləri qeyd edilib.***

Prezident İlham Əliyevə istinadla bildirilib ki, Azərbaycan ərazi bütövlüyünün pozulmasından əziyyət çəkən bir ölkə olaraq bütün dövlətlərin ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycan Rusiya-Ukrayna müharibəsinin ilk günlərindən Ukraynanın ərazi bütövlüyünü dəstəkləyib və dəstəkləməyə davam edir.

Məqalələrdə dövlətimizin başçısının Zəngəzur dəhlizi ilə bağlı fikirləri də işıqlandırılıb. Qeyd olunur ki, məhz SSRİ-nin fəaliyyəti nəticəsində Azərbaycan ərazisinin bir hissəsini itirib. Sovet İttifaqı Qərbi Zəngəzuru 1920-ci ildə Azərbaycandan alaraq Ermənistana verdiyi üçün Naxçıvan bölgəsi anklav olub.

Ukrayna mediasında, həmçinin Prezident İlham Əliyevin Vaşinqtona səfəri və Trampla görüşü barədə də fikirləri dərc edilib.



# Leyla Əliyeva Şamaxıda körpələr evi-uşaq bağçalarının açılışında...

***Avqustun 28-də Heydər Əliyev Fondu tərəfindən Şamaxının İkinci Cabanı və Böyük Xınıslı kəndlərində inşa olunan körpələr evi-uşaq bağçalarının açılışı olub.***



SİA yerli mənbələrə istinadən xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak edib.




Leyla Əliyeva körpələr evi-uşaq bağçalarının otaqları ilə tanış olub, uşaqlar üçün yaradılan şəraitə baxış keçirib.

Bildirilib ki, hər iki bağça kəndlərin mərkəzində yerləşir. Müasir və tam təchizatlı körpələr evi-uşaq bağçalarında balacalar üçün yataq və oyun otaqları, idman və musiqi zalları, tibb otağı, yeməkxana və digər inzibati, texniki otaqlar mövcuddur. Məktəbəqədər təhsil müəssisələri zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçaların həyətyanı ərazilərində yaşıllaşdırma işləri aparılıb, uşaq əyləncə qurğuları quraşdırılıb.

İkinci Cabanı kənd körpələr evi-uşaq bağçasının rəhbəri Töfə Bəşirova jurnalistlərə açıqlamasında bildirib ki, bağça 41 ildir fəaliyyət göstərsə də, heç vaxt bu cür şərait olmayıb: "Köhnə bağça yararsız vəziyyətə düşdüyündən fərdi evdə fəaliyyət göstərirdik. Heydər Əliyev Fonduna müraciət etdik, qısa müddət ərzində yeni bağça inşa olunub təhvil verildi. Sabahdan yeni bağçada uşaqları qəbul edə biləcəyik. Yeni bağçada 1-3, 4-6 yaş arasında qruplar fəaliyyət göstərəcək. Qonşu kəndlərdən də bağçamıza müraciətlər var. Uşaqlarımız üçün yaradılan şəraitə görə Heydər Əliyev Fonduna dərin minnətdarlığımızı bildiririk".

Leyla Əliyeva daha sonra Şamaxıda və Ağsuda bir neçə ailəni ziyarət edib.

# Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının perspektivləri müzakirə olunub

***Avqustun 28-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono ilə görüşüb.***



SİA yerli mənbələrə istinadən xəbər verir ki, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı Azərbaycan-Avropa İttifaqı (Aİ) əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri, Azərbaycan-Ermənistan normallaşma prosesi, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub.

Azərbaycan və Aİ arasında iqtisadi, ticarət, nəqliyyat, enerji təhlükəsizliyi, yaşıl enerji, humanitar və sair istiqamətlər üzrə əməkdaşlıq məsələləri nəzərdən keçirilib. İki tərəf arasında yüksək səviyyədə təmasların məmnunluq doğurduğu, dialoqun davam etdirilməsinin vacibliyi vurğulanıb.

Avropa İttifaqının xüsusi nümayəndəsi Azərbaycan Prezidentinin ABŞ-a səfəri zamanı keçirilmiş Zirvə görüşü çərçivəsində Azərbaycan-Ermənistan normallaşma prosesində nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Avropa İttifaqının sülh prosesinə müxtəlif istiqamətlərdə dəstək verməyə hazır olduğunu bildirib.

Ceyhun Bayramov öz növbəsində Vaşinqton sammiti zamanı əldə edilmiş tarixi razılıqlar, Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi üzrə əldə olunan irəliləyişlər və perspektivlər barədə qarşı tərəfə məlumat verib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın Venesueladakı səfiri etimadnaməsini Nikolas Maduroya təqdim edib

Azərbaycanın Venesueladakı səfiri Ruslan Rzayev etimadnaməsini Venesuela Prezidenti Nikolas Maduroya təqdim edib. Bu barədə SİA-ya səfirlikdən məlumat verilib.



Bildirilib ki, R.Rzayev qəbul zamanı Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Nikolas Maduroya çatdırıb. Dövlət başçısının salamlarına görə minnətdarlığını bildirən Venesuela Prezidenti, öz növbəsində, onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

N.Maduro Bakıya səfərlərini məmnunluqla xatırlayaraq bir daha səmimi qonaqpərvərliyə görə Azərbaycan dövlət başçısına təşəkkürünü bildirib.

Görüşdə həmçinin iki ölkə arasında ikitərəfli əlaqələrin inkişafı, beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə hər iki ölkənin Qoşulmama Hərəkatına sədrliyi dövründəki uğurlu əməkdaşlığın davam etdirilməsi, həmçinin iqtisadi, ticarət, enerji, turizm və digər sahələrdə əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Zirvələrə ucalan Azərbaycanın siyasi və iqtisadi gücü

2020-ci ilin sentyabrın 27-də işğalçı ölkənin növbəti genişmiqyaslı hərbi təxribatına cavab olaraq başlanan Vətən müharibəsi Ermənistanın məğlubiyyəti və Azərbaycanın düşmən üzərində həlledici qələbəsi - Zəfəri ilə başa çatdı. 2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli Bəyanatın imzalanması Azərbaycanı dünyada qalib, Ermənistanı isə məğlub dövlət kimi tanıtdı. 44 günlük Vətən müharibəsində dövlət başçımızın qətiyyəti, müdrik siyasəti, Silahlı Qüvvələrimizin gücqüdrəti, xalq-Prezident-ordu vəhdəti, birliyi Qələbəmizin əldə olunmasında xüsusi rola malikdir. Azərbaycan öz haqlı mübarizəsini və azadlıq savaşını beynəlxalq hüququn normaları çərçivəsində və dünya hərb sənətinin ən müasir üsullarını tətbiq etməklə apardı. Üçtərəfli birgə bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edərək "Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişə-



sinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır", - deyə bildirmişdir. Bəyanata əsasən, Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunun, 1 dekabr 2020-ci il tarixinədək Laçın rayonunun, 20 noyabr 2020-ci il tarixinədək isə Ağdam rayonunun qaytarılması nəzərdə tutulmuşdu. Üçtərəfli Bəyanata əsasən, 15 noyabr tarixində Kəlbəcərin təhvil verilməsi qərarlaşdırılsa da Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadıldı və Kəlbəcər də işğaldan azad olundu. Mahiyyət etibarilə Ermənistanın kapitulyasiyası olan Bəyanata əsasən, döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistanın Prezidenti İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul edərək kapitulyasiya şərtlərinə razılıq verdi. "Üçtərəfli bəyanat bizim regionda möhkəm və uzunmüddətli sülhün bərqərar olması işində mühüm addımdır", - deyə dövlət başçımız bildirmişdir.

Bütöv və suveren Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra indi də həmin ərazilərdə bərpa və yenidənqurma işlərini həyata keçirir. Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa edir, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşdırır. Regionda yeni reallıqlar yaradan Azərbaycanda tarixi ədalət bərpa olunub və bölgədə sülh və sabitlik üçün geniş imkanlar mövcuddur. Bu, Azərbaycanın gücünün göstəricisidir.

## XIDIRLI KƏNDİNƏ 104 AİLƏ - 370 NƏFƏR KÖÇÜRÜLDÜ

İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Azərbaycanın azad edilmiş ərazilərinin bərpası əsas məsələlərdəndir və bu istiqamətdə tarixi qələbəmizdən sonra azad edilən ərazilərdə sürətli şəkildə bərpa və quruculuq işləri aparılır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, yenidən qurulan Ağdam rayonunun Xıdırlı kəndinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı yola salınıb. Bu mərhələdə Ağdam rayonunun Xıdırlı kəndinə 104 ailə - 370 nəfər köçürülüb.



Hazırda Qarabağda və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 50 mindən çox insan yaşayır.

27 il sonra Ağdam işğaldan azad olundu və Azərbaycan öz haqqına qovuşdu. Bu gün Ağdam yeni günün yaşayır və işğaldan azad olunan Ağdamımızda abadlıq-quruculuq işləri həyata keçirilir. Azərbaycanın Vətən müharibəsində qazandığı parlaq qələbə nəticəsində Ağdam bir güllə atılmadan düşmən tapdağından azad olunub. 27 ildən sonra günəş şüaları ilə nurlanmış ağ ev Ağdam Azərbaycana qaytarıldı. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan Ermənistan öz işğalçı siyasətini davam etdirsə də Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. 27 il Ağdam şəhəri də daxil olmaqla ərazisinin böyük bir hissəsi erməni işğalı altında olan ərazimiz, əzəli torpaqlarımız sahiblərinə qaytarıldı. "Bütün binalar, bütün kəndlərdəki evlər, ictimai binalar ermənilər tərəfindən dağıdılıb. Bu, misli görünməmiş barbarlıqdır, vandallıqdır, vəhşilikdir. Bu, erməni faşizminin eybəcər sifətinin göstəricisidir. Bütün dünya bunu görməlidir və görür. Biz bundan sonra da xarici vətəndaşları buraya dəvət edəcəyik. Onlar gələcəklər və erməni vəhşiliyi nədir onu görəcəklər"- deyə Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir.

## "BİZ GÜCLÜ DÖVLƏT YARATMIŞIQ"

Bu gün nəinki, Ağdamda eləcə də işğaldan azad olunan digər ərazilərdə böyük abadlıq-quruculuq işləri aparılır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Bu gün misli görünməmiş bərpa işləri aparılır. Nəyin hesabına? Məhz hazırlıq hesabına. Ona görə biz güclü dövlət yaratmışıq, Mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır". Görülən işlər hazırlanmış layihələr, şəhərlərin baş planı əsasında sistemli olaraq reallaşır. Hər qarışında tariximizin izi olan bu ərazilərdə böyük bir xalqın izi, imzası vardır. 30 ilə yaxın işğal altında olan ərazilərimizdə sürətlə aparılan abadlıq və quruculuq işləri burada yeni müasir məkanlarımız olacağından xəbər verir. Əlbəttə ki, bu ərazilərdən erməni vandallarının izlərini silib atsaq da tariximizdə, yaddaşımızda onların törətdikləri çirkin əməlləri silinməyəcək. Bu gün ermənilərin viran qoyduqları ərazidə irimiqyaslı layihələr icra olunur. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələri salınır. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur. Yeni reallıqlar yaradan Azərbaycan dinamik inkişaf dövrünü yaşayır. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda etibarlı tərəfdaşlarından birinə çevrilib.



## AĞDAMIN MÜASİR HƏYATINA YENİ SƏHİFƏLƏR

İşğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işələri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

Artıq görülən işlərin məntiqi nəticəsi olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış ardıcıl olaraq həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam rayonuna səfərləri və burada yeni müəssisələrin təməllərinin qoyulması Ağdamın müasir həyatına yeni səhifələr açır. Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhələlərinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulub. Əlbəttə ki, dövlət başçısının Ağdam rayonuna səfərləri bu ərazidə görülən işlərin daha sürətli reallaşmasının təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam Sənaye Parkında müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun, Ağdam Sənaye Parkında Avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunun, Ağdam Sənaye Parkında Dam örtükləri istehsalı zavodunun açılışlarını edib.

Artıq Ağdamda İmarət Kompleksinin də bərpadan sonra açılışı olub. Qeyd edək ki, Ağdam rayonunda erməni vandalizminə məruz qalan tarixi-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayıdır. XVIII əsrə aid bu tarix-memarlıq abidəsi Azərbaycan ərazisində yayılmış digər xan saraylarından fərqlənərək dəbdəbəli ev xüsusiyyəti daşıyıb. İşğal altında olmuş ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi, Pənahəli xanın imarəti də işğalçılar tərəfindən təhqir edilib, vandalizmə məruz qalıb. Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarı olub.

Ağdamda reallaşan layihələr baş planına uyğun olaraq həyata keçirilir. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir.

Əlbəttə ki, Ağdamda aparılan abadlıq-quruculuq işləri çərçivəsində şəhərin daxili yollarında aparılan işləri də qeyd etməliyik. Ağdam şəhərinin Baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edir. Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Eni 55-60 metr təşkil edəcək bu yol 6-8 hərəkət zolağından ibarət olacaq. Ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 122,2 kilometr təşkil edəcək. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisi 2026-cı ildə başa çatdırılacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Kiyevdə dəhşətli gecə

## Rusiya Ukraynaya hava hücumu zamanı "Kinjal" aeroballistik raketlərindən və "İskəndər"lərdən istifadə edib

***Alyaskada keçirilən Tramp-Putin görüşündən sonra düşünmək olardı ki, Ukrayna-Rusiya cəbhəsində aktiv hücumlar qismən səngiyəcək, ən azında ballistik raketlə hücumlara ara veriləcək. Ukraynanın paytaxtı Kiyevə edilən raket hücumları isə gözləntiləri tamamilə alt-üst etdi. Kiyevə kütləvi hücum zamanı Rusiya ordusu daha çox reaktiv pilotsuz təyyarələrdən və çoxlu sayda raketlərdən istifadə edib, onlardan ikisi yaşayış binasına düşüb və dinc sakinlərin ölümünə səbəb olub. Bu barədə telemarafonun efirində Ukrayna Silahlı Qüvvələrinin Hərbi Hava Qüvvələri Komandanlığının rabitə şöbəsinin rəisi, polkovnik Yuri İqnat məlumat verib. Onun sözlərinə görə, Ukraynaya qarşı ən kütləvi hücumların episentrində paytaxt Kiyev olub.***



”Bu vəziyyətdə Müdafiə Qüvvələri əlindən gələni etdi... 629 hava hücumu qeydə alındı. Onların arasında ”Kinjal” aeroballistik raketləri də var idi. Kh-101 havadan buraxılan raketlər, ”İskəndərlər”... Balistik raketlər qısa müddətdə Kiyevə çatır. 9 ballistik raketlərdən 7-i, 20 ”Kinjal” və Kh-101 raketindən 18-i vurulub”, - İqnat vurğulayıb. Hərbçi bildirib ki, düşmən hədəflərinin vurulmasının arxasında son dərəcə çətin iş görən Ukrayna Müdafiə Qüvvələrinin minlərlə mütəxəssisi dayanır. Hədəflər birbaşa F16 qırıcıları tərəfindən vuruldu, bu da özünü effektiv





göstərdi, mobil atəş qrupları, elektron müharibə, zenit-raket qoşunları və s.

İqnatın sözlərinə görə, ümumiyyətlə, beş raket və 30-a yaxın dron HHM qüvvələrindən yayınaraq hədəfə çata biliblər: ”Hücumun özəlliyi - bütün dünya görməlidir ki, Rusiya qanadlı raketlərlə yaşayış binalarını, dinc sakinləri birbaşa hədəfə alır. Bunu bütün dünya bilməlidir”. O, əlavə edib ki, düşmən müxtəlif tipli pilotsuz təyyarələrdən, o cümlədən partlayıcı hissələrlə təchiz edilmiş ”simulyatorlardan” istifadə edir, həmçinin reaktiv mühərrikli pilotsuz təyyarələr də çoxdur. Bunu düşmənin ən kütləvi hücumu ilə müqayisə etsək, ruslar Ukraynaya qarşı 740 hava hücumu silahından istifadə etdikdə, fərq ondadır ki, bu gün Kiyevə daha çox raket atılıb.

Bu gün Rusiya hücum zamanı daha çox reaktiv mühərrikli pilotsuz uçan aparatlardan - yüksəksürətli PUA-lardan daha çox istifadə edir. Amma, onlar da vurulur. Təcavüzkar ümumilikdə 629 hava hücumu silahından istifadə edib: 598 ”Şahed” tipli dronlarla hücum və müxtəlif tipli dron imitatorları, 2 ədəd Kh-47M2 ”Kinjal” aeroballistik raketi, 9 ədəd ”İskəndər-M/KN-23” ballistik raketi, 20 ədəd Kh-101 qanadlı raketi. İlkin məlumatlara görə, 589 hava hədəfi vurulub. Kiyevdəki hücumda onlarla mülki şəxs yaralanıb, ilkin məlumatlara görə, 4-ü uşaq olmaqla 15 nəfər həlak olub.

Bundan əvvəl Ukrayna prezidenti Vladimir Zelenski yeni qanlı hücumu emosional şəkildə şərh edərək, xarici ölkələri qətllərə son qoymaq üçün Rusiyaya təzyiq göstərməyə çağırıb. ”Hazırda Kiyevdə Rusiyanın zərbəsindən sonra adi yaşayış binasının dağıntılarını təmizləyirlər. Şəhərlərimizə və icmalarımıza qarşı növbəti kütləvi zərbə. Daha çox qətl. Təəssüf ki, ölənlər arasında uşaqlar da var. İnsanlar hələ də dağıntılar altında ola bilər. Onlarla yaralı var. Bu gün Rusiya raketləri və hücum pilotsuz təyyarələri dünyada həftələr və aylardır atəşkəsə və real diplomatiyaya çağıran hər kəsə açıq cavabdır. Rusiya danışıqlar masasını deyil, ballistikanı seçir. O, öldürməyə davam etməyi seçir, müharibəni bitirməməyi seçir. Və bu o deməkdir ki, Rusiya hələ də onun nəticələrindən qorxmur.

Ukraynalılar düşünür ki, Rusiyaya qarşı yeni sərt sanksiyalar tətbiq etməyin vaxtıdır. Artıq bütün müddətlər qaçırılıb, diplomatiya üçün onlarla fürsət məhv edilib. Rusiya bu müharibənin hər zərbəsinə, hər gününə görə məsuliyyət hiss etməlidir. Ukrayna prezidenti Vladimir Zelenski Putin müharibəni sona çatdırmaqda ciddi olduğunu göstərməsə, Rusiya iqtisadiyyatını çökdürmək üçün ABŞ-ın daha sərt sanksiyalarına ümid edir.

### Avropalılar onun tələsinə düşəndə Putin gülür

Avropa İttifaqının xarici siyasət departamentinin rəhbəri Kaja Kallas Ukrayna torpaqlarının Moskvaya verilməsi çağırışlarının ”Vladimir Putinin qurduğu tələyə” aparan birbaşa yol olduğunu deyir və Kreml rəhbərini sülhün əldə olunmasında həqiqətən maraqlı olmamaqda ittiham edib. ”Ukraynanın nədən imtina etməli olduğu, Ukraynanın hansı güzəştlərə getməyə hazır olduğu barədə müzakirələr gedir, lakin eyni zamanda biz Rusiyanın bir dənə də olsun güzəştə getmədiyini unuduruq. Və işğalçı Rusiyadır, başqa ölkəyə vəhşicəsinə hücum edən və insanları öldürən onlardır”, - Avropa İttifaqının xarici siyasət departamentinin rəhbəri deyib: ”Rusiyanın bizi cəlb etmək istədiyi tələ məhz budur”.

ABŞ prezidenti Tramp yenə də açıq şəkildə döyüşlərə son qoymağa çağırıb, lakin Kallas Kremlin dialoqa girmək istəyini şübhə altına alıb: ”Rusiya sadəcə olaraq dalana dirənir. Aydındır ki, Rusiya sülh istəmir. Prezident Tramp dəfələrlə deyib ki, qətl dayandırılmalıdır, Putin isə sadəcə gülür, qətli davam etdirir, Ukraynanın bombalanmasını gücləndirə bilərsən”. Kallas vurğulayıb ki, istənilən davamlı sülh prosesi atəşkəslə başlamalı və Ukrayna üçün uzunmüddətli təhlükəsizlik təminatlarını ehtiva etməlidir. Həll uzunmüddətli olmalıdır. Ona görə də biz təhlükəsizlik zəmanətlərini müzakirə edirik - Putinin yenidən cəhd etməsinin qarşısını almaq üçün. ABŞ bu zəmanətlərin bir hissəsi olmalıdır.

Avropa diplomatiyasının rəhbəri həmçinin Qərbin məhdudlaşdırıcı tədbirlərinin roluna işarə edərək Moskvaya təzyiqi artırmağa çağırıb: ”Amerikalılar Rusiyanı danışıqlara məcbur etmək üçün sanksiyalar və tariflər vasitəsilə Rusiya üzərində təsir rıçaqlarına malikdirlər”. Kallasın sözlərinə görə, Rusiya prezidenti Alyaskada siyasi qələbə qazanıb: ”Putin istədiyinə nail oldu. Foto çəkdirmək istəyirdi, amma daha çox şey əldə etdi: Amerikada onu qarşıladılar. O, sanksiyaların tətbiq edilməməsini də istəyirdi və buna da nail oldu”.

Alman hüquqşünas Aİ Şurasına qarşı Rusiyaya sanksiya tətbiq edərkən ”təsdiqlənməmiş qəzet xəbərlərinə əsaslanaraq” diffamasiya iddiasını davam etdirir. Almaniyanın Federal Ədalət Məhkəməsində baxılan apellyasiya şikayəti müsbət nəticələnərsə, Avropa İttifaqı Şurası AB-nin sanksiya qərarı ilə bağlı ilk dəfə görülən böhtan iddiasında özünü müdafiə etməli ola bilər. Bu barədə əldə edilən sənədlərdə yazılıb. Söhbət Aİ Şurasının 2023-cü ilin sentyabrında rusiyalı iş adamı Əlişir Usmanovun sanksiyalar siyahısına daxil edilməsinin səbəbləri ilə bağlı qəbul edilmiş bəyanatından gedir. Usmanovun vəkili Hamburqdan olan Yoahim Ştaynhofel iddia edir ki, Şuranın istinad etdiyi əsas iddialar sonradan əsassız tapılıb.

Bir hissədə deyilir ki, Usmanov ”guya prezident Putin üçün vasitəçi olub və onun biznes problemlərini həll edib”. Şuranın Forbes-ə istinad etdiyi bu iddia, Steinhofel Hamburq regional məhkəməsində etiraz edib və onu qanunsuz hesab edib. Forbes yurisdiksiyaya görə müraciət edib və orijinal məqaləni yoxlanılan fakt deyil, qorunan rəy kimi müdafiə edib. ”Jurnalistin ifadə etdiyi fikir sanksiyalar üçün əsas ola bilməz. Müəllifin özü izahat verərsə, Şura məqaləni ehtimal olunan fakt kimi dərc edə bilməz”, - Steinhöfel bildirib.

***V.VƏLİYEV***

# İnsanlığa düşmən kəsilən insanlar



Tarximiz qaranlıq səhifələri ilə zəngindir. Çünki elə dövrlər olub ki, işğalçı ordular nəinki bir şəhəri, ümumilikdə onlarla kəndi, qəsəbəni və şəhəri yerlə yeksan edib, əhalisini isə zorakı vasitələrlə qətlə yetirib. Hazırda dünya xalqları günümüzə qədər gəlib çıxan bəşəri faciələrin az qismindən məlumatlı ola bilib. Əksər fəlakətlərdən, insan qırğınlarından isə heç bir məlumata malik deyillər. Çünki qan donduran bəşəri faciələrin böyük hissəsi ilə bağlı bu gün heç bir arxiv sənədləri yoxdur. Bu isə o deməkdir ki, vəhşilər törətdikləri insan ölümlərini ört-basdır etməyə müvəffəq olublar. Bununla yanaşı, bu gün bəzi kütləvi qətliamlara, qırğınlara dair məlumatlar kitabxanalarda saxlanılmaqdadır. Tarixi mənbələrə istinadən qeyd etmək olar ki, qədim dövrdə elə müharibələr olub ki, işğalçılar zəbt etdikləri şəhərlərin, kəndlərin hər bir canlısını qılıncdan keçiriblər. Yunan tarixçisi Fukidid eramızdan əvvəl V əsrdə Pelopennes müharibəsi zamanı afinalıların Melos adası sakinlərini son nəfərinədək məhv etdiyini yazıb. 947- ci il də bizim qədim yurdumuz olan Bərdə şəhərini işğal edən slablar 20 min insanı qətlə yetirmişlər. Yalnız Şirvanşahların müdaxiləsindən və slabların başçısının öldürlməsindən sonra Bərdədə normal həyatı bərpa etmək mümkün olmuşdur. Araşdırmalar təsdiq edir ki, 23 milyondan çox Amerika aborigenlərinin qətlə yetirilməsi bəşər tarixinin ən genişmiqyaslı soyqırımı hesab olunur. Avstraliya aborigenlərinin soyqırımı da həyata keçirilmişdir. Belə ki, 1788-ci ildən başlayaraq Avstraliyada Avropa müstəmləkəçiləri məskunlaşmağa başladılar. O zaman yerli aborigenlərin sayı təxminən 750 000 nəfər təşkil edirdi. Lakin 1911-ci ildə onların sayı cəmi 31 000 nəfər idi. Onların əksəriyyəti xəstəlikdən, deportasiyadan, qətliamdan və aclıqdan həlak oldu. 1226-cı il də Nişapuru işğal edən Cingiz xan şəhərin əhalisini tamamilə qılıncdan keçirib. Hətta Cingiz xan Nişapuru alan zaman əsgərlərinə əmr edir ki, şəhərdə insanlarla yanaşı uçan quşlar, yeriyən heyvanlar da məhv edilsin.

İnsan qatilləri qədim dövrlərdə can almaq əməllərini 20-ci əsrdə də davam etdirmişlər. Birinci Dünya müharibəsində 20 milyon, İkinci Dünya müharibəsində isə 70 milyona yaxın insan öldürülmüşdür. Nasist Almaniyası tərəfindən 6 milyon yəhudinin məhv edilməsini (Xolokost) tarixin ən dəhşətli soyqırımılarından hesab olunur. Yaponiya ordusu tərəfindən törədilmiş beynəlxalq cinayətlər bəşəri vəhşiliklər hesab olunur. Müharibə bitdikdən sonra müttəfiqlər tərəfindən hərbi cinayətlərin törədilməsində ittiham olunan təxminən 5000 yapon hərbçisi üzərində məhkəmə prosesləri keçirilmiş və onlann 4400 nəfəri məhkum edilmiş, 1000 nəfərinə isə ölüm cəzası kəsilmişdir. Almanlar tərəfindən Namibiyanın yerli xalqlarının məhv edilməsi nəticəsində 65 000 xerero (onların 80 faizi) və 10 000 nama (onların 50 faizi) həlak olmuşdur. 1985-ci ildə BMT Namibiya yerli xalqların məhv edilməsi cəhdini XX əsrin birinci soyqırımı aktı kimi qiymətləndirdi. 2004 ildə Almaniya hakimiyyəti Namibiyada soyqırımının törədilməsini etiraf etdi və rəsmi üzr istədi. 1975-1979 illərdə Pol Pot və İyenq Sari rejimi tərəfindən Kambocada 3 milyona qədər insanın məhv edilməsini, 1995 - ci ildə Srebrenisada Bosniya müsəlmanları Bosniya serbləri tərəfindən kütləvi qırğınını, Darfurda yerli əhalinin soyqırımı (BMT hesablamalarına əsasən, həlak olanların sayı 180 mindən artıqdır) və digər cinayətlər bəşəriyyətin amansız soyqırımıları hesab olunur.

1994-cü ildə Ruandadakı hutu hökuməti tutsiləri kütləvi qırğına məruz qoyub. Müxtəlif hesablamalara görə, iki ay ərzində təxminən 800.000-1.000.000 arası insan həlak olub, 250.000-500.000 qadın zorlanıb, ölənlərin 70%-ini tutsilər təşkil edib. Ruanda dövlət başçısı Pol Kaqame Fransa və Belçikanı soyqırımının siyasi hazırlıqlarını təşkil etməkdə günahlandırır.

2016-cı ilin sonlarında 300 nəfər silahlı rohanca sərhəd postlarına hücum edib 9 hərbçini öldürəndən sonra Myanma silahlı qüvvələri Rakhayn ştatında yaşayan rohancalara - müsəlman azlığa qarşı kütləvi qırğın əməliyyatlarına başlayıb. "Ontario" Beynəlxalq İnkişaf Agentliyinin (OIDA) məlumatına görə, həmin dövrdən etibarən Myanma ordusu tərəfindən 24.000 rohanca öldürülüb, 18.000 qadın əsgər və polislər tərəfindən zorlanıb, 116.000 nəfər fiziki zorakılığa məruz qalıb, 36.000 nəfər odda yandırılıb, 115.000 ev yandırılıb, 113.000 ev yağmalanıb. Uzunmüddətli və təkrarlanan repressiyalar nəticəsində Myanmada 2.4 milyon rohincadan yalnız 200.000 nəfəri sağ qala bilib.

## Ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər

Bəşər tarixinin ən amansız insan faciələri arasında ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər ön sıralarda durur. İki əsr ərzində iki milyona yaxın azərbaycanlı erməni terrorunun qurbanı olub. Ötən əsrin 88-ci illərindən başlayaraq ermənilər azərbaycanlıları öldürmək, torpaqlarını zəbt etmək üçün genişmiqyaslı terror aktları həyata keçirməyə başlamışdır. Erməni silahlı quldur dəstələri 1989-cu ildən başlayaraq mütəmadi olaraq Xocavənd rayonunun Qaradağlı kəndini ağır texnikalardan, qumbaraatanlardan, pulemyotlardan və digər odlu silahlardan atəş açaraq kənddə yaşayan əhalini mütəmadi olaraq qorxu və həyəcan içərisində saxlamış, evlər yandırılmış və kənddə yaşamaq mümkün olmadığına görə həmin dövrdən başlayaraq 1992-ci ilin fevral ayının 14-nə kimi 889 nəfər kənd sakini öz yaşadıqları evlərdən zorla deportasiya olunmuşdur. 11 fevral 1992-ci il tarixdə erməni silahlı dəstələri tərəfindən Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərinin top, raket, pulemyot, avtomat silahlardan və zirehli texnikalardan atəşə tutulması nəticəsində dinc sakinlərdən 10 nəfəri (6-sı Malıbəyli, 4-cü Quşçular) qətlə yetirilmiş, 5 nəfəri (2-si Malıbəyli, 3-ü Quşçular) kəndi tərk edə bilməyib xəbərsiz itkin düşmüş, 45 nəfəri (25 nəfəri Malıbəyli, 20 nəfəri Quşçular) yaşadıqları kəndlərdən çıxaraq piyada Ağdam rayonu Abdal-Gülablı istiqamətində gedərkən erməni silahlıları tərəfindən avtomat və digər odlu silahlardan atəşə tutularaq ağır dərəcəli bədən xəsarətləri almış, 9 nəfər (3-ü Malıbəyli, 6-sı Quşçular) kənd sakini isə ermənilər tərəfindən girov götürülərək işgəncələrə məruz qaldıqdan sonra müxtəlif vaxtlarda azad olunmuş və onlara verilmiş işgəncələr nəticəsində almış olduqları xəsarətlərin təsirindən vəfat etmişdir. Erməni terrorçu hərbi birləşmələrinin işğal nəticəsində Malıbəyli kəndinin 2223 nəfər, Quşçular kəndinin isə 844 nəfər azərbaycanlılardan ibarət əhalisi deportasiyaya məruz qalmış, Quşçular və Malıbəyli kəndlərinə (o zaman mövcud olmuş məzənnə ilə) 35 mlrd 195 mln 478 min 249 manat ziyan dəymişdir.

14-17 fevral 1992-ci il tarixdə erməni silahlı quldurlarının Xocavənd rayonunun Qaradağlı kəndini silahlı basqın zamanı 104 nəfər girov götürülmüş, 67 nəfər Qaradağlı kənd sakini, o cümlədən, 9 nəfər azyaşlı uşaq, 10 nəfər qadın, 14 nəfər 60 yaşdan yuxarı kişilər, 34 nəfər gənclər öldürülmüş, 5 nəfər itkin düşmüş, 37 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almış, kəndi işğal edərkən 200-dən artıq fərdi yaşayış evləri, 1 mədəniyyət evi, 2 kitabxana binası, 1 məktəb binası, 1 xəstəxana binası, bir tarixi abidə, digər dövlət obyektləri, habelə 250 hektar meşə zolağı yandırılaraq, dövlətə və əhaliyə 60.666.000 ABŞ dolları məbləğində maddi ziyan vurulmuşdur.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhərində ermənilər tərəfindən 613 nəfər azərbaycanlı, o cümlədən, 63 azyaşlı uşaq, 106 qadın, 70 qoca qətlə yetirilmişdir. 8 ailə bütövlükdə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş, 487 nəfər yaralanmış, onlardan 76-sı uşaq, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər isə itkin düşmüşdür.

## Xocalı soyqırımı dünyanı sarsıtdı

Qəbul edilən qərarlara və yuxarıda qeyd olunan prinsiplərə əsasən, demək olar ki, ermənilərin Xocalı şəhərində törətdikləri kütləvi insan qətliamı soyqırımı aktları kateqoriyasına aiddir. Ermənilərin törətdiyi bu soyqırımı nəticəsində Xocalı hadisələrini beynəlxalq hüquq əsasında soyqırımı cinayəti aktı kimi tövsif etməyə imkan verir: 1. BMT Baş Assambleyası tərəfindən 260 A (III) saylı qətnamə ilə qəbul edilmiş 9 dekabr 1948-ci il tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar" Konvensiyası. 2. Nörnberq Hərbi Tribunalının Nizamnaməsi. 3. Beynəlxalq Cinayət Tribunalınm Yuqoslaviya üzrə Nizamnaməsi (maddə 4). 4. Beynəlxalq Cinayət Tribunalınm Ruanda üzrə Nizamnaməsi (maddə 1). 5. Beynəlxalq Cinayət Məhkəməsinin statusu (maddə 6). 6) Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (maddə 103). 7) Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı. Beləliklə, Xocalı şəhərində əhaliyə - ermənilər tərəfindən etnik azərbaycanlılara qarşı törədilmiş hərəkətlər beynəlxalq hüquqi sənədlərə uyğun olaraq soyqırımı kimi tövsif olunur və beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq bəşəriyyətə qarşı cinayətdir. Xocalı soyqırımı şahidlərinin ifadələrindən və aparılan araşdırmalar zamanı məlum olmuşdur ki, ermənilər tərəfindən qətlə yetirilmiş azərbaycanlı uşaqların sinəsi yarılıb ürəkləri parçalanmış, əksər meyitlər isə tikə-tikə doğranmışdır. Beynəlxalq qanlara əsasən Xocalıda qətliamlar törətmiş Sarkisyanın, Koçaryanın, Ohanyanın və digər vəhşilərin məhkəmə qarşısına çıxarılaraq cəzalandırılması ədalətin qismən də olsa bərpası demək olar. İngilis jurnalisti Tomas de Val "Qarabağ" kitabında konkret olaraq göstərir ki, Xocalı soyqırımının törədilməsi ilə bağlı Serj Sarkisyana sual etdikdə, o, Xocalı soyqırımını bilərəkdən törətdiklərini etiraf edib: "Serj Sarkisyan dedi ki, azərbaycanlılar elə bilirdi ki, zarafat edirik, biz Xocalıda heç bir cinayət törətməyəcəyik. Amma biz azərbaycanlılara sübut etdik ki, bunu bacarırıq".

Soyqırımı anlayışının hüquqi mənası

BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 A saylı qətnamə ilə qəbul etdiyi "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında" Konvensiya ilə müəyyən edilmişdir ki, hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi niyyəti ilə aşağıdakı hərəkətləri bildirir: - belə bir qrupun üzvlərinin qətlə yetirilməsi; - hər hansı belə bir qrup üçün qəsdən onun tam və ya qismən məhvinə hesablanmış həyat şəraitinin yaradılması; - belə bir qrup arasında uşaq doğumunun qarşısının alınmasına hesablanmış tədbirlər; - uşaqların zorakılıqla bir insan qrupundan digərinə verilməsi.

Soyqırımı cinayəti üçün xüsusi niyyətin olması zəruri element sayılır. Bu obyektiv soyqırımı cinayətinin digər analoji beynəlxalq cinayətlərdən fərqləndirir. Soyqırımı cinayətini təşkil edən əməllərdən hər biri şüurlu və əvvəlcədən düşünülmüş olur. Bu əməllər heç bir halda təsadüf və ya ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Soyqırımı cinayətinin təhlili zamanı onun 3 əsas hissəsi üzə çıxarır: - məlum, milli, etnik, irqi və ya dini qrupun varlığı; - belə bir qrupun tamamilə və ya qismən məhv edilməsi niyyətinin olması. Soyqırımı qurbanlarının müəyyən edilməsinin həlledici əlaməti onların fərdiliyi deyil, məhz onların qrupa mənsubluğudur; - niyyət qrupun məhv edilməsindən ibarət olmalıdır. Soyqırımı bütöv bir insan qrupunun mövcudluq hüququnu tanımaqdan imtina etməkdir. Ayrıca bir insanın qətlə yetirilməsi (soyqırımı) ayrıca bir fərdin yaşamaq hüququnu tanımaqdan imtina kimi xarakterizə olunur. İlk dəfə olaraq, kütləvi insan qətliamlarının soyqırımı sayılması təklifini 1933-cü ildə yəhudi əsilli polşalı hüquqşünas Rafael Lemkin İspaniyada keçirilən cəza hüququnun eyniləşdirilməsinə dair V beynəlxalq konfransda irəli sürmüş və uzun müzakirələrdən sonra təklifini qəbul etdirə bilmişdir. Sonradan, yəni müharibənin Almaniyanın məğlubiyyəti ilə başa çatmasından sonra Nürnberq Beynəlxalq Hərbi Tribunalı nasistləri "insanlıq əleyhinə cinayətlərin" törədilməsi barədə qərar qəbul etdi. Qərarda "genosid" sözü ittihamnamə aktına daxil edildi. "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli qətnaməsi qəbul edilmişdir. Konvensiya 19 maddədən ibarətdir. İndiyədək dünyanın 153 ölkəsi bu Konvensiyanı ratifikasiya etmişdir.

## Vəhşilər cəzasız qala bilməz

BMT Təhlükəsizlik Şurası beynəlxalq cinayət törətmiş fiziki şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün "ad hoc" qaydasında ilk dəfə 23 fevral 1993-cü il tarixli 808 nömrəli və 25 may 1993-cü il tarixli 827 nömrəli qətnamələrinə əsasən "1991-ci ildən keçmiş Yuqoslaviya ərazisində törədilmiş beynəlxalq humanitar hüququn ciddi pozuntularına görə məsuliyyət daşıyan şəxslərin təqib edilməsi üzrə Beynəlxalq Tribunal" yaratmışdır. Bu tribunalın əsasnaməsi də təsdiq olunmuşdur. Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının (KYBCT) birinci hökmü 29 noyabr 1996-cı ildə çıxarılmışdır. Ümumilikdə 144 məhkəmə prosesi keçirilmişdir (o cümlədən, 94-ü serblərə, 33-ü xorvatlara, 8-i Kosovo albanlarına, 7-si Bosniya müsəlmanlarına və 2-si makedoniyalılara qarşı). Həm də Haaqa Tribunalının ittihamları Bosniya serblərinin rəhbəri P.Miadiç və R.Karadiçə qarşı da irəli sürülmüşdür. İkinci Beynəlxalq Tribunal Ruanda üzrə yaradılmışdır. Bu məhkəmənin vəzifəsi 1994-cü ildə Ruandada və qonşu ölkələrdə soyqırımının bəşəriyyət əleyhinə cinayətin araşdırılması idi.

Azərbaycan 44 günlük Vətən Müharibəsi və daha sonra 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyat tədbirləri ilə ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Hər yerdə quruculuq, bərpa tikinti işləri həyata keçirilir. Lakin ərazilərin hər qarışında ermənilərin törətdikləri vəhşiliklərinin, soyqırımı aktlarının izləri görünür. Ən ürəkdağlayan hal isə birinci Qarabağ müharibəsi zamanı erməni terrorçuları tərəfindən vəhşicəsinə öldürülüb, quyularda basdırılan azərbaycanlı əsgərlərinin, mülki insanların kütləvi məzarlıqlarının aşkar edilməsidir. Xocavənd rayonunun Edilli kəndində tapıldı. Məzarlıqda 12 nəfərin qalıqları var. İndiyə qədər Edilli kəndində 3 kütləvi məzarlıq sahəsi aşkar olunub. Birinci və ikinci sahədə ümumən 6, üçüncü sahədə isə 12 meyit aşkarlanıb. Bəzi əlamətlər bu skeletlərin hərbçilərə aidliyindən xəbər verir. Üzərlərində paltarlar, ayaqlarında qara dəriyə bənzər çəkmələr var. Onların yanında 2 ədəd bıçaq, siqaret kötükləri, gilizlər də aşkara çıxarılıb. İlkin baxış insan qalıqlarının Azərbaycan hərbçilərinə aid olduğundan, əsirlikdə işgəncə ilə öldürüldüklərindən xəbər verir.

Bütün bunlar onu təsdiq edir ki, dünyada terrorçu təşkilatlar arasında ən vəhşisi və amansızı erməni toplumunun yaratdığı təşkilatlardır. Hansı ki, bu terror təşkilatları vasitəsi ilə azərbaycanlılar hədəf seçilib öldürülüb, evləri yandırılıb, yurdu-yuvası viran edilib. Təbii ki, bu cür vəhşiliklərə dünya birliyi etinasız qalmamalıdır. Təcili beynəlxalq tribunal təşkil etməli və koçaryanlar, sarkisyanlar, ohanyanlar həbs olunaraq dünya birliyi önündə layiqli cəzalarını almalıdır.

***İLHAM ƏLİYEV***

# Çin avtomobilləri: sərfəli alternativ, yoxsa riskli seçim?

***Son illərdə qlobal avtomobil bazarında mühüm dəyişikliklər müşahidə olunmaqdadır. Bu dəyişikliklərin əsas istiqamətlərindən biri Çin istehsalı avtomobillərin sürətlə artan rolu ilə bağlıdır. Avtomobil sənayesi ənənəvi olaraq Almaniya, Yaponiya, ABŞ və Cənubi Koreya kimi ölkələrin dominantlığı altında formalaşsa da, hazırda Çin avtomobil istehsalçıları həm daxili bazarda, həm də beynəlxalq miqyasda mühüm oyunçuya çevriliblər.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Xüsusilə, Çin avtomobillərinin qiymət baxımından daha əlçatan olması, yeni texnologiyalara - xüsusilə də elektrik avtomobillərinə - yönəlməsi, həmçinin dövlət dəstəyi









ilə geniş istehsal imkanlarının yaradılması bazardakı rəqabəti kəskin şəkildə artırıb. Bu proses həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə avtomobil seçiminə birbaşa təsir göstərir.

Azərbaycan da daxil olmaqla bir sıra regionlarda Çin istehsalı avtomobillərə maraq getdikcə artır. Bu marağın formalaşmasında bir neçə amil - qiymət uyğunluğu, ehtiyat hissələrinin əlçatanlığı, yeni texnologiyalara uyğunlaşma və geniş model çeşidi mühüm rol oynayır. Bununla yanaşı, Çin avtomobillərinin bazara təsiri yalnız müsbət deyil; bəzi hallarda keyfiyyət, uzunömürlülük və servis infrastrukturunun yetərsizliyi ilə bağlı müzakirələr də mövcuddur.

Beləliklə, mövzu həm iqtisadi, həm də sosial baxımdan aktualdır və həm istehlakçı davranışlarının dəyişməsini, həm də avtomobil sənayesinin gələcək inkişaf istiqamətlərini anlamaq baxımından əhəmiyyətlidir.

ARAŞDIRMA

## Qlobal avtomobil bazarında mövcud durum

- Avropada avtomobil satışları 2025-ci ilin iyul ayında 5.9% artıb. Marketin dinamikasında almaniya payı önəmlidir.

- Elektrik avtomobilləri (EV) Avropa avtomobil qeydiyyatlarının 59.8%-ni təşkil edib - ötən ilin 51.1%-inə nisbətən artım var.

- Avtomobil istehsalçıları, xüsusilə Külor nəzarəti ilə bağlı 2035 hədəflərin yenidən qiymətləndirilməsini tələb edir.

## Çin avtomobillərinin qlobal bazar rolunun güclənməsi

- Çin avtomobil sənayesi qlobal EV bazarında liderliyə doğru sürətlə irəliləyir. Yeni inkişaf modeli sayəsində istehsalın sürəti iki dəfə artırılıb, 40-50% daha ucuz və 30% maliyyət üstünlüyü təmin edilir.

- Çin avtomobillərindən ibarət neft enerjili (NEV) istehsal 2025-ci ildə daxili bazarın 67%-ni təşkil edəcək.

- 2025-ci ilin ilk yarısında Çin avtomobil ixracatı 3.083 milyon vahid təşkil edib (illik +10.4%), NEV ixracı isə 75.2% olaraq artım göstərib.

- Çin markalarının Avropa bazarında payı sürətlə artır; may 2025-də 60,000-dən çox satış (illik +85%), Avropada 5.4% bazar payı əldə edilib.

- Cənub-Şərqi Asiya, Latın Amerikası kimi bazarlarda Çin avtomobillərinin bazar payı sürətlə yüksəlir. AlixPartners proqnozlarına görə, 2030-cu ildə Cənub-Şərq və Cənub Asiyada 31%, Latın Amerikada 28% EV bazar payı tutacaqlar.

- Çin avtomobil sənayesi həm zəncirvari təchizatda, həm də texnoloji tərəfdən üstünlük təşkil edir - 2024-də dünya avtomobil satışlarının təxminən 30%-i Çində həyata keçirilib, EV satışları isə ABŞ-dan xeyli irəlidə qalıb.

Performance Center Satış sonrası xidmət departamenti rəhbəri Razil Nağıyev: ”2000-ci illərdə və daha əvvəl istehsal olunan Çin avtomobilləri əsasən ucuz materiallar, zəif təhlükəsizlik göstəriciləri və aşağı texnologiya ilə tanınırdı. Bu səbəbdən uzun müddət ”Çin maşınları keyfiyyətsizdir” imici formalaşdı.

Son 5 ildə Çin avtomobil sənayesi çox sürətlə inkişaf edib. Bir çox Çin markaları texnoloji baxımdan BAİC, BYD, Geely, Changan, Haval, və s. artıq Avropa və ABŞ standartlarına cavab verən hibrid və elektrik modellər istehsal edir. Euro NCAP təhlükəsizlik sınaqlarında bəzi modellər yüksək bal toplayır. Premium seqmentdə artıq dəri salon, müasir multimedia, avtomatik sürücü dəstək sistemləri kimi texnologiyalar tətbiq edilir. Avropa dizaynerləri və mühəndisləri işə götürülüb, nəticədə daha cəlbedici dizaynlar ortaya çıxır. Avropa və Yapon avtomobilləri ilə müqayisədə bəzi Çin modellərinin uzunmüddətli dözümlülüyü ilə hələki bir addım geridə qalmasına baxmayaraq müsbət istiqamətdə günbəgün inkişaf etməkdədir. Hələ bazarda yeni olduqları üçün Çin avtomobillərinin ikinci əl bazarı tam olaraq formalaşmayıb və avtomobillərin sayı artıqca ikinci əl bazarı da paralel olaraq yaranacaq.

Qeyri rəsmi şəkildə gətirilən Çin avtomobillərinin istehsalçı zəmanəti və öhdəliyi olmadığından alıcılarda bəzən sual yaradır amma rəsmi servislərdən alınan avtomobillərdə problemlər demək olar ki, az saydadır, hətta olsa belə rəsmi ditrubutor tərəfindən həll edilir. Ümumi nəticəyə baxsaq, ucuz seqmentdə olan Çin maşınları daha əlçatan qiymətə uyğundur, lakin orta və yüksək seqmentdə baxsaq artıq Avropa və Yapon istehsalçılarına real rəqib olmağa başlayıblar, xüsusilə də elektrik avtomobillərində”.

## Konsumer və dünya bazarına təsir: rəqəmsal və qiymət üstünlükləri

- UBER-in rəhbəri Çindəki EV istehsalçılarının (BYD, Geely və b.) Tesla, Ford və digər Qərb markalarını texnoloji yenilikçilik və səmərəli istehsalda qabaqladıqlarını vurğulayıb.

- BYD, Tesla-nı arxada qoyaraq Avropa satışlarında liderlik edir.

- Çin markaları in-car karaokelər kimi innovativ rəqəmsal xüsusiyyətlərlə istehlakçıları cəlb edir.

- Geely öz peyk konstitusiyasını quraraq avtomobil texnologiyasında yeni imkanlar açır - təhlükəsizlik, naviqasiya və müstəqil sürüşə yol açır.

## Azərbaycan avtomobil bazarı və Çin idxalının rolu

- 2024-cü ildə Azərbaycana idxal edilən avtomobil sayı 91,838 vahid olub; 4.3% azalmasına baxmayaraq, dəyərdə 9.7% artım qeyd edilib. Hibrid avtomobillərin idxalı 48.2%, EV-lərin isə 6% artıb.

- Yerli istehsal 86.6% artaraq 4,433 avtomobilə çatıb, NAZ-Lifan (Çin-Ərəb layihəsi) və Khazar əsas iştirakçılardır.

- Çin markaları (BYD, Chery, Changan) Bakı və regionlarında satış və servis şəbəkəsini genişləndirir; ”Made in China = sərfəli + etibarlı” imici formalaşır.

- Azərbaycan, ”Belt and Road” təşəbbüsündən faydalanaraq Çin avtomobil sənayesinin regional mərkəzlərdən biri olaraq formalaşır.

- NAZ-Lifan zavodu 2010-cu ildə Azərbaycan da istehsala başlamışdı; 2022-ci ildə isə ZX Auto-nun elektrik və pikap modellərinin montajı həyata keçirilir.

- Vergi stimulları (VAT-dan azad olunma) Çin avtomobillərinin yerli istehsal dəyərini təxminən 18% azaldır.

## Yekun qiymətləndirmə

Qlobal səviyyədə, Çin avtomobil sənayesi sürət, texnologiya, qiymət və rəqəmsal innovasiyalarda qlobal liderə çevrilir.

Elektriklilər sektorunda Çin markaları bazar paylarını sürətlə artıraraq Avropa və Emerjinq bazarlarda ön planda yer tutmağa başlayır.

Azərbaycan bazarında, Çin nəqliyyat vasitələri bu gün həm idxalda, həm də yerli istehsalda əhəmiyyətli yerlər qazanıb. Bu, ”Made in China” etimad və sərfəlilik imicini dəstəkləyir və ölkənin avtomobil sənayesinin transformasiyasına təsir edir.

***Ayşən Vəli***

# Müstəmləkəçi Fransa və yeni hədəflər

## Fransa və Almaniya hərbi istehsalı daha səmərəli etmək yollarını müzakirə edirlər

***Fransa tarixən müstəmləkəçi, sümürgəçi dövlət olub. Farmasiyalar bir-birini əvəz etsə də, yeni krallar, idarəçilər, yeni respublikalar yaransa da fransızların dünya sivilizasiyasına münasibəti dəyişməyib. Başqa xalqların malını-mülkünü mənimsəmək, onları kölə kimi çalışdırmaq, onlarla qeyri-insani rəftar kimi bəşəri cinayətlər bu günümüzə qədər gəlib çatıb. Müasirliyi ilə öyünən indiki Fransada görünənlər yalnız illüziyadır, həqiqətdə isə V respublika quldarlıq dövründə ilişib qalıb. Afrikadan, Cənub-şərqi Asiyadan, Dənizaşırı adalardan gətirdikləri milyonlarla qul bir əsr bundan əvvəl fransızların qabağında necə qul kimi çalışdırılırdısa, bu gün də onlara münasibət dəyişməyib. Parisdə, Marseldə, Bordoda, Tuluzada yüz il əvvəl çalışdırılan konqolu, ruandalı, nigerli, madaqaskarlı, əlcəzairli, dominikanlı, surinamlı, qvadelupalı qulların nəvə və nəticələri "müasir və demokratik" Fransada makronlara, bricitlərə, mişellərə qul xidməti göstərirlər.***









"Ərəb baharı"ndan sonra Suriyadan, İraqdan, Əfqanıstandan, Liviyadan, Misirdən, Tunisdən başlanan və Avropaya tərəf istiqamət alan miqrant axınının təşkilatçıları kimdir və bu kampaniyanı niyə aparırlar? Heç tərəddüd etmədən Fransa başda olmaqla Avropa dövlətlərini göstərmək olar. "İnqilab"lardan sonra ölkəsindən didərgin düşən, geri dönüşü mümkün olmayan, bir qarın yemək üçün hər işi görməyə hazır, ən əsası isə hüquqsuz olan bu insanlar, əslində avropalılar üçün kölə ticarəti aparan və elə onlar tərəfindən də himayə ediləb beynəlxalq səviyyəli çətenin "yem"ləridir. Adıçəkilən ölkələrdə "rəngli inqilab"ları tərtib edənlər ən yaxşı halda vətəndaş müharibəsini bu xalqlara miras qoyublar. Yəni, hədəf, deyildiyi kimi, demokratik quruluş yaratmaq olmayıb, əsas məqsəd avropalılara xidmət edəcək ucuz işçi qüvvəsi, daha dəqiq desək, kölə, qul əldə etmək olub.

Bu gün Avropa özünün ən ağır dövrünü yaşayır. Müstəmləkə altında uzun illər inildəyən xalqlar artıq özgürlüyünə qovuşmaq üçün ayaqdadır. Avropalı "ağalar"ına qarşı üsyan edirlər, artıq mütilik, itaətkarlıq, köləlik genindən qurtulmaq üçün "ən ağır əməliyyatlara girirlər", müqavimət göstərirlər. Kağız üzərində kolonialist siyasətdən əl çəkdiyini desə də, rəsmi Paris bunun yalnız görüntü xatirinə etdiyini atdığı addımlarla dəfələrlə sübuta yetirib. Yeni Kaledoniyanın azadlı mübarizəsinin müsbət nəticə verəcəyini anlayan Fransa hakimiyyəti qorxulu ssenarisini işə salaraq azad olmaq istəyən xalqa yaşıl işıq yandırdığını bəyan etdi. Amma "üzürü günahından böyük", yəni Yeni Kaledoniya məsələni referendumla həll etməyi düşündüyü bir vaxtda Paris müstəqilliyi "vaxtından əvvəl" tanıdı. Amma elə şərtlər irəli sürdü ki, kanaklar azadlıq istədiklərinə peşman oldular. Fransa bir tərəfdən özünü demokratik bir ölkə kimi dünyaya sırıyır, arxa planda isə müstəmləkə siyasətinə sadiqlik nümayiş etdirir. Bəli, forma dəyişsə də, mahiyyət dəyişməyib.

### Fransa kiminlə savaşa hazırlaşır?

Fransa qorxur, həm də qorxudur. Qorxduğu ölkə tarixi düşməni Rusiyadır, qorxutmaq istədiyi də Putinin ölkəsidir. Ukraynada 4 ilə yaxındır ki, uzanan müharibədə Moskvanın hədəfləri bəllidir, Avropa isə vaxtı uzatmaq, tərəfləri taqətdən salmaq və onların sərvətlərinə əl qoymağı düşünür. ABŞ özünü kənara çəkmiş kimi təqdim etməyə çalışır, amma gizlin iş görməyin onun üçün keçərli olmadığı ortadadır. Vaşinqton həm Moskva, həm Kiyev, o cümlədən Brüsselə oyun oynayır. 36,7 trilyon dollarlıq borcunu yüngülləşdirmək üçün axtardığı, Rusiya və Ukraynanın timsalında tapdığı yeni qazanc mənbələrinə çatmaq üçün təzyiqlərini artırır. Avropa da sakit dayanmır, onu təhlükəsizlik çətirindən məhrum edən ABŞ-ın planından kənar silahlanma kampaniyasına start verir. Avropanın iki nəhəngi Almaniya və Fransanın rəhbərləri Fridrix Merz və Emmanuel Makron Xarici İşlər Nazirliyinin Berlindəki Villa Borsiqdəki qonaq evində görüşüblər. Paris və

Emmanuel Makron Almaniya kansleri Fridrix Mersi Provansdakı Breqankondakı yay iqamətgahında qəbul edib. Tulonda Fransa-Almaniya Təhlükəsizlik və Müdafiə Şurasının iclasında iki ölkənin liderləri və nazirləri birgə müdafiə layihələrini, Fransanın nüvə qarşısının alınmasının blokun digər 26 ölkəsini əhatə edib-etməyəcəyini və Avropanın sənaye və texnoloji bazasının necə gücləndirəcəyini müzakirə ediblər. Bu həftənin əvvəlində Yelisey Sarayı bildirib ki, Makron və Merz Aİ-də istehsal olunan silah sistemlərinin sayını azaltmağın müdrik olub-olmaması barədə danışıqlar aparıblar.

Rusiyanın onilliyin sonundan əvvəl Aİ ölkələrinə hücum edə biləcəyi qorxusu fonunda müdafiə istehsalını artırmaq səyləri yüksək dərəcədə parçalanmış müdafiə sənayesi tərəfindən əngəllənmişdir, bir çox üzv dövlətlər milli təhlükəsizlik səbəbi ilə öz müdafiə sənayelərini inkişaf etdirməyə üstünlük verirlər. Bu, Rusiyanın tam miqyaslı işğalı ilə mübarizə apararkən Avropa ölkələri tərəfindən təmin edilən müxtəlif silah sistemlərindən istifadə etməyi və onlara qulluq etməyi öyrənməli olan Ukrayna üçün də problem olub.

Məsələn, Avropa Eurofighter Typhoon, Rafale, JAS Gripen və ABŞ F-35 də daxil olmaqla ən azı dörd müxtəlif növ döyüş təyyarəsini, tanklar baxımından Avropa ölkələri Alman "Leopard", Fransız "Leclerc", Britaniyanın "Challenger", İtalyanın "Ariete", Amerikanın Abrams və Cənubi Koreya K2-ni idarə edir. 2030-cu ilə qədər sektora yüz milyardlarla avro axını nəzərdə tutulduğundan, təkcə xərcləri azaltmaq və qarşılıqlı əlaqəni yaxşılaşdırmaq üçün deyil, həm də Avropa istehsal xətlərini işə salmaq üçün satınalmaların birləşdirilməsi təşəbbüsləri davam edir. Makronun son bir il ərzində müdafiə tədarüklərinə Avropanın güzəştli yanaşması adlandırılmasında israr etməsi artıq AB liderləri arasında narazılıq yaradıb, bəziləri ABŞ-ın qisas alacağından qorxur, digərləri isə bu addımın ilk növbədə Fransanın müdafiə sektoruna fayda verəcəyini iddia edir. Fransanın cənubunda iki lider arasında hazırkı müzakirələr, şübhəsiz ki, narazılıq və buna bənzər tənqidlərə səbəb olacaq.

### Ağıllı qərar?

Aparıcı şirkətlərə üstünlük vermək və istehsalın İttifaqın bütün ölkəsinə yayılmaması "müdrik qərar" ola bilər, çünki bu şirkətlər sürətli və sübut edilmiş inkişaf və istehsal dövrləri sayəsində tələbatı daha yaxşı qarşılamaq şansına malikdir. Bu, hərbi texnikanın daha az modelinə gətirib çıxara bilsə də, bu, mütləq eyni texnikanın daha az milli variantına və buna görə də hər bir texnika üçün lazım olan maddi-texniki dəstək növlərinə səbəb olmayacaq. Bu, həmçinin daha az sənaye alternativinə və daha az rəqabətə gətirib çıxara bilər ki, bu da innovasiyanı ləngidə bilər. Təchizat təhlükəsizliyi ilə bağlı narahatlıqlar bu cür qabaqcıl zavodlara malik olmayan ölkələrin modeli qəbul etməyi də çətinləşdirəcək. Məsələn, özünün müdafiə sənayesi bazasının inkişafına sərmayə qoyan Polşa modelə güclü müqavimət görə bilər, çünki bu, onun milli ambisiyalarına mane ola bilər. Polşa bahalı hərbi texnikasının böyük hissəsini ABŞ və Cənubi Koreyadan alır. Bu ayın əvvəlində o, Asiya ölkəsindən dəyəri 6 milyard avrodan çox olan müqavilə ilə daha 180 tank alacağını açıqlamışdı.

### Şişirilmiş gözləntilərdən imtina

Almanların və fransızların Aİ-nin digər üzv dövlətlərini uğurla lobbi etmək üçün həm siyasi, həm də sənaye səviyyəsində konsolidasiya edilmiş birgə mövqeyə ehtiyacları olacaq. Xüsusən də sənayelərinin çox fərqli olması və Almaniyanın evdə istehsal etmədiyi Amerika avadanlıqlarını standart olaraq almağa davam etdiyi üçün. Yelisey Sarayı artıq gözləntiləri azaltmağa çalışıb və belə bir siyasətin işlənib hazırlanmasının "son dərəcə çətin iş tələb edəcəyini" vurğulayıb. Nəhayət, sual budur ki, avropalılar sahib olduqları silah sistemlərinin sayını necə azalda, eyni avadanlıqdan istifadə edə, onu Avropada istehsal edə və bunu həm öz suverenliyini, həm də istehsal güclərinin etibarlılığını təmin edəcək şəkildə edə bilər. Bu, isə asan deyil.

### Tarixin ən qanlı hadisəsi...

Fransa müstəmləkə dövrünə aid üç kəlləni Madaqaskara qaytarıb. Onlardan biri, ekspertlərin fikrincə, 19-cu əsrdə fransız qoşunları tərəfindən başını kəsilmiş Malaqas kralına məxsusdur. 1897-ci ildə fransız qoşunları kral Toheranın başını kəsdilər və onun kəlləsini müharibə qəniməti kimi Fransaya apardılar. Daha sonra Hind okeanındakı adalardan yüzlərlə digər insan qalıqları ilə birlikdə Paris Təbiət Tarixi Muzeyinə qoyuldu. "Bu kəllələr milli kolleksiyalara insan ləyaqətini açıq şəkildə təhqir edən şəraitdə və müstəmləkə zorakılığı nəticəsində daxil olub", - Fransanın mədəniyyət naziri Raşida Dati bildirib. Onun madaqaskarlı həmkarı Volamiranti Donna Mara bu jesti yüksək qiymətləndirərək, bunu iki ölkə arasında əməkdaşlığın yeni dövrünü açacaq çox əhəmiyyətli addım adlandırıb. "Onların bir əsrdən çox, yəni 128 ildən çox olmaması adamızın ürəyində açıq yaraya çevrildi" deyib.

Birgə elmi komitə kəllələrin Sakalava xalqına aid olduğunu təsdiqləyib və onlardan birinin Kral Toereyə aid olmasının "yüksək ehtimal" olduğunu vurğulayıb. Emmanuel Makron 2017-ci ildə prezident seçildikdən sonra Fransanın Afrikadakı bəzi müstəmləkələri olduğunu etiraf edib. Madaqaskarın paytaxtı Antananarivuya səfəri zamanı o, Fransanın "qanlı və faciəli" müstəmləkəçiliyinə görə "bağışlanmaq" cəhdindən danışıb. 1960-cı ildə, 60 ildən çox müstəmləkəçilikdən sonra Madaqaskar müstəqilliyini elan etdi. Qalıqların bazar günü dəfn olunmaq üçün adaya qaytarılması planlaşdırılır.

### Qanlı və faciəli müstəmləkəçilik

Son illərdə Fransa imperiyanın fəthlərinin bəzi qalıqlarını geri almaqla müstəmləkə keçmişi ilə barışmaq üçün mübarizə aparır. Lakin əvvəlki qanunlar bu prosesi çox çətinləşdirirdi və hər bir bərpa ayrı-ayrılıqda qanunvericilikdə nəzərdə tutulmalı idi. Məsələn, 2002-ci ildə Cənubi Afrika Saartje Baartmanın qalıqlarının geri qaytarılmasını tələb edərkən, 19-cu əsrin əvvəllərində Cənubi Afrikadan Avropaya gətirilən xoylu qadın iri, çıxıntılı ombası və göz çarpan cinsiyyət orqanına görə maraq üçün ictimaiyyətə qəribə şoularda nümayiş etdirdi. "Hottento Venera"nın bu nümayişləri 200 il əvvəl "qeyri-Avropalı" irqlərə mənsub insanların təbii halında nümayiş etdirildiyi "insan zooparkları" yaratmaq təcrübəsinə başlamışdır. Parisdəki l'Homme Muzeyindəki 30 min eksponatın təxminən üçdə birində kəllə və skeletlər var.

Prosesi sürətləndirmək üçün Fransa parlamenti 2023-cü ildə insan qalıqlarının repatriasiyasını asanlaşdırmaq üçün qanun qəbul edib. Həmin il Fransa da nasistlər tərəfindən talan edilmiş sənəti yəhudi sahiblərinə və varislərinə qaytarmaq üçün ayrıca qanun qəbul etdi. Bununla belə, müstəmləkə dövründə talan edilmiş mədəni sərvətlərin geri qaytarılmasını asanlaşdıran qanun hələ də yekunlaşdırılmayıb. Qəbul edilsə, 1815-1972-ci illər arasında oğurluq, soyğunçuluq, məcburiyyət və ya zorakılıq yolu ilə əldə edilmiş əsərlərin geri qaytarılmasını asanlaşdıracaq. Qanun layihəsinin yeni versiyası iyulun sonunda Nazirlər Kabinetinin iclasında təqdim edilib və Fransanın mədəniyyət naziri planın "tezliklə" qəbul ediləcəyinə ümid etdiyini bildirib.

***V.VƏLİYEV***

# İnteqrativ tibb: insan necə bütünləşir?

***İnteqrativ tibb insanın psixoloji, mənəvi, fiziki, ekoloji, genetik və sosial vəziyyətini araşdıran, insan sağlamlığını pozan bütün amilləri elmi və tamamlayıcı diaqnostik və müalicə üsulları vasitəsilə qiymətləndirən bir yanaşmadır. İnteqrativ tibb elmi məlumatlara əsaslanan akupunktur, fitoterapiya, miyoterapiya, aromaterapiya, Ayurveda və enerji təbabəti kimi elmi metodların və dəstəkləyici müalicələrin birgə tətbiqini əhatə edir. Yəni nə tibbi inkar edir, nə də türkəçarədir. İki sistemi də özündə birləşdirən, bütünləşdirən müalicə metodudur.***



İnteqrativ təbabət yanaşmasında xəstəliyin müalicəsi ilə yanaşı, xəstəliyə səbəb olan əsas faktorların müəyyən edilməsi və fərdin daha rahat yaşaya bilməsi üçün onları yaxşılaşdırmaq məqsədi daşıyır. Buna köklü araşdırma, dərindən müalicə də deyə bilərik.

İnteqrativ sağlamlıq təkcə xəstəliyin sağalmasından ibarət deyil. İnteqrativ tibb sağlamlığa yönəlmiş bir yanaşma qəbul edir, yəni bu müalicə metodu xəstəliyə yönəlmir, dayanıqlı, sağlam həyat məqsədi daşıyır. Bu, insanın özünün də xəbərsiz ola biləcəyi və sağlamlığına xələl gətirən əqli, fiziki, ətraf mühit, sosial amilləri yaxşılaşdırmaq üçün addımlar atan və insana tamamilə yeni həyat tərzini mənimsəməyə kömək etməyi hədəfləyən bir yanaşmadır. İnteqrativ Tibb Klinikaları təkcə xəstəlikləri olanlar üçün deyil, həm də həyat keyfiyyətini yaxşılaşdırmaq istəyən insanlar üçündür.

İnteqrativ sağlamlıq, xərçəng, xroniki xəstəlikləri, ümumi yorğunluğu və bir çox başqa xəstəlikləri olan insanlara xəstəlik simptomlarını daha yaxşı idarə etməyə və həyat keyfiyyətini yaxşılaşdırmağa kömək etmək məqsədi daşıyır. İnteqrativ Tibb Klinikasında istifadə olunan akupunktur, nəfəs terapiyası, tibbi məşq, aromaterapiya, fitoterapiya, pəhriz əlavələri, ayurveda, miyoterapiya, enerji təbabəti, meditasiya kimi müalicə üsulları insanı həm fiziki, həm də psixoloji olaraq tamamlamağa xidmət edir.

İnteqrativ Tibb həm tamamlayıcı, həm də ənənəvi müalicə yanaşmalarını əhatə edir və hər ikisinin istifadəsini vahid müalicə planının bir hissəsi kimi əlaqələndirir. İnteqrativ Tibb konsepsiyası təkcə sağlamlıq problemləri olan xəstələrə deyil, həm də həyatı boyu sağlam həyat sürmək istəyən hər kəsə tövsiyə olunur. Astma, xərçəng, xroniki ağrı, xroniki yorğunluq, diabet, baş ağrısı, miqren, sonsuzluq, bağırsaq sindromu, skleroz, asılılıq, həyacan və qorxuların idarə edə bilməmək, diqqət çatışmazlığı, hiperaktivlik pozuqluğu, depressiya, yuxusuzluq, travma sonrası stress pozğunluğu kimi bir çox problemlər inteqrativ tibb üsulları ilə müalicə edilə bilir.

Ənənəvi və tamamlayıcı tibbi müalicə üsullarından istifadə edən inteqrativ tibb bədənin özünü sağaltma və təmir mexanizmlərini aktivləşdirən sistemləri əhatə edir. Müasir tibbin məlumatları və texnoloji imkanları ənənəvi biliklərlə birləşir, bu birləşmədəki məqsəd isə xəstənin ömürlük, davamlı rifahına nail olmaqdır. İnteqrativ tibbdə simptomlar səbəb-nəticə əlaqəsi və ya kökdəki səbəb əsasında müəyyən edilir. Məsələn, piylənmədən əziyyət çəkən bir insanın həddindən artıq yeməsinə səbəb nədir? Piylənmə nə vaxt başlayıb? Hormonal problem və ya psixoloji bir səbəb varmı?

Bu vəziyyətdə əsas diqqət xəstənin qidasını kəsmək, çəkisini azaltmaq yerinə xəstəliyin əsas səbəbini müəyyən etməkdir. Orqanizmin sağlamlığını pozan, onun fəaliyyətini və axınını pozan amillər müəyyən edilir və onların aradan qaldırılması üçün müalicə nəzərdə tutulur. Bu planlaşdırma mərhələsində müalicə üsulları xəstənin anamnezi, fiziki müayinəsi, pəhrizi, bağırsaq keçiriciliyi, stress səviyyəsi, həyat tərzi, vərdişlər və kimyəvi təsir kimi çoxsaylı parametrləri qiymətləndirərək vahid yanaşma ilə müəyyən edilir.

İnteqrativ sağlamlıqda diqqət xəstəliyə deyil, xəstəyə yönəlir. Xəstələr özləri sağalmağı və sağlam həyat tərzini arzulamalıdırlar. Bir çox xəstələr üçün vərdişlərini tərgitmək və yeni həyat tərzinə keçmək ilk vaxtlarda çətin ola bilər. Lakin inteqrativ təbabətdə orqanizmin özünü sağaltmasına köməklik prinsipinə əsaslanan xəstənin qətiyyəti və buna hazır olması müalicənin uğurunu artırır.

İnteqrativ tibbdə xəstə və həkim sağalma prosesində bir-birinə etimad edən tərəfdaşdırlar. Müalicə prosesi inların bir-birinə qarşı dürüstlüyü, inamı ilə daha da effektiv olur. Müalicə başlayanda əvvəlcə sağlamlığa təsir edən, insanı xəstələndirən bütün amillər - bədən, ruh, ağıl, psixologiya, genetika, ətraf mühit, cəmiyyət kimi amillər nəzərə alınmaqla ümumi qiymətləndirmə aparılır. Bədənin təbii sağalma reaksiyasını dəstəkləmək və ona mane olan maneələri aradan qaldırmaq üçün uyğun ənənəvi və alternativ tamamlayıcı üsullar birlikdə istifadə olunur.

İnteqrativ tibbdə mümkün olduqca ən təbii, ən az invaziv üsullara üstünlük verilir, xəstə yüklənmir, yorulmur. Xəstəliklərin müalicəsi ilə yanaşı, əsas konsepsiya sağlamlığın qorunmasını və mühavizə edilməsini ehtiva edir. İnteqrativ təbabət bu sahədə xüsusi təlim keçmiş mütəxəssislər tərəfindən həyata keçirilməlidir, əks halda effektivlik olmaz.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması “ istiqaməti çərçivəsində hazırlanıb.*



# ”Valideynlər arzularını yox, övladın potensialını əsas götürməlidir” - MÜNASİBƏT BİLDİRİLDİ

“Müasir dövrdə gənclərin karyera seçimi məsələsi cəmiyyətin mühüm müzakirə mövzularından biridir”. Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib. O bildirib ki, bu prosesdə valideynlərin rolu isə əhəmiyyətli dərəcədə qalmaqda davam edir. Bəzən bu təsir müsbət, bəzən isə gənclərin potensial və maraqlarına uyğun olmayan istiqamətləndirmələr şəklində mənfi xarakter alır. Sovetlər Birliyi dövrü ilə müqayisədə bu gün valideynlərin övladlarının ixtisas seçiminə təsiri daha da güclənmiş kimi görünür: ”Valideynlər övladlarının təhsil və gələcək karyeraları ilə bağlı qərarlarında artıq orta məktəbin aşağı siniflərindən etibarən müdaxilə etməyə başlayırlar. 6-7-ci siniflərdən etibarən uşaqların fənn yönümləri - humanitar, ya texniki sahəyə meyllilikləri müəyyən olunmağa çalışılır. Bu mərhələdə onların xarakter xüsusiyyətləri, davranışları və maraqları nəzərə alınaraq gələcəkdə hansı sahədə uğur qazana biləcəkləri barədə ilkin düşüncələr formalaşır.

Lakin bir çox valideyn hələ də öz arzularını övladlarına yükləməyə çalışır. Xüsusilə sovet dövründən gələn stereotiplər, hüquqşünas və ya həkim olmaq arzusu hələ də bir çox ailədə qalmaqdadır. Lakin unudulmamalıdır ki, hər bir şagirdin hüquq fakültəsinə daxil olmaq və ya həkim olmaq potensialı yoxdur. Bu səbəbdən valideynlər şəxsi istəklərini deyil, övladlarının real bilik və bacarıqlarını əsas götürərək onlara istiqamət verməlidirlər.





Ali təhsil mərhələsi və sonrakı karyera dövründə isə müşahidə olunur ki, bir çox gənc seçdiyi ixtisas üzrə fəaliyyət göstərmir. Bu, həm obyektiv, həm də subyektiv səbəblərlə bağlıdır. Bəzi hallarda gənc bitirdiyi ixtisasda karyera imkanlarını zəif görür, bəzi hallarda isə təsadüfi şəkildə başqa sahəyə yönəlir. Məsələn, hüquqşünaslıq ixtisasını bitirən bir şəxsin biznes sahəsində uğurlu karyera qurduğu hallara tez-tez rast gəlinir.

Sovet dövründə ali təhsilli şəxslərin böyük əksəriyyəti dövlət təyinatı ilə ixtisaslarına uyğun işlə təmin olunurdular. Müasir dövrdə isə bu praktika olmadığından gənclər daha çox şəxsi təşəbbüslərinə və imkanlarına əsaslanaraq iş axtarışına çıxırlar.

Valideynlərin karyera seçiminə təsirini qiymətləndirərkən onların intellektual səviyyəsi, dünyagörüşü və gələcək vizyonu da nəzərə alınmalıdır. Bəzi valideynlər nəinki dəstək göstərir, əksinə, düzgün istiqamət vermədikləri üçün övladlarını çaşdıra da bilirlər. Ən ideal yanaşma isə odur ki, valideyn övladının bacarıq və maraqlarını düzgün qiymətləndirsin və bu əsasda ona düzgün yol göstərsin.

Müasir dövrdə bəzi gənclər artıq ali təhsildən sonra bir neçə xarici dil öyrənir, ölkə xaricində şəxsi inkişaf perspektivləri görür və öz karyera yollarını müstəqil şəkildə seçirlər. Bu da onu göstərir ki, gənclərin dünyagörüşü genişləndikcə onların karyera ilə bağlı qərarları daha çox öz şəxsi iradələrinə əsaslanır.

Bununla belə, ümumi mənzərə göstərir ki, bu gün gənclərin ali təhsil almağa maraqları artmışdır. Valideynlərin bu prosesdəki təsiri isə əvvəlki dövrlərlə müqayisədə daha çox müşahidə olunur. Əlbəttə ki, valideyn müdaxiləsi tamamilə aradan qalxmamalıdır. Lakin bu müdaxilə yalnız o zaman faydalı ola bilər ki, valideyn övladının potensialını düzgün qiymətləndirə bilsin və onun maraqlarını, seçimini nəzərə alsın”.

***Günel Fərzəliyeva***

SON SƏHİFƏ
SƏS
29 avqust
2025-ci il

# Stilist retro üslubun populyarlığından danışıb...



***Stilist Olqa Rodina retro üslubun populyarlığı ilə bağlı fikirlərini bölüşdü və məsələn, "baba"dan qalma dəri gödəkçəsini düzgün şəkildə necə inteqrasiya etmək barədə məsləhətlər verdi.***

...Köhnə şeylərə ehtirasda əsas şey fanatizmin olmamasıdır.

SİA-nın məlumatına görə, Rodina vurğulayıb ki, vintage əşyalar (30 yaşdan yuxarı) çoxdan Qərb məşhurlarının qarderobuna daxil edilib.

Xüsusilə, model Bella Hadid tez-tez bit bazarlarında və ikinci əl mağazalarında qonaq olur. Bundan əlavə, onun fikrincə, pandemiya insanları sağlamlıqla yanaşı, əşyalar haqqında da daha şüurlu edib.

Rodina qeyd edib ki, "baba stili" tendensiyası köhnə və ya retro əşyaları müasir geyimlərlə birləşdirməyi öyrənən təsirli şəxslər sayəsində yaranıb.

Məsələn, dəbli geniş şalvar, mütləq vintage deyil, bir süveter ilə tamamlana bilər, ancaq babanın qarderobundan götürülmüş olduğu təəssüratını yaradır.

Kişilər retro görünüşləri laklı çəkmələr və parlaq corablarla tamamlayır.

Vintage dəri gödəkçələr artıq bir neçə mövsümdür ki, populyardır. Bir çox marka xüsusi olaraq köhnə dəri gödəkçələr istehsal edir.

Əgər atanızdan, ananızdan və ya babanızdan köhnə dəri gödəkçə almısınızsa və ölçüsü bir qədər böyük olsa belə, onu geyinməkdən çəkinməyin: onu cins şalvar, köynək, kazak çəkmələri və ya idman ayaqqabısı ilə birləşdirin, stilist tövsiyə edir.

*Nazlı Almuradova*


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Almaniyada 5,5 min avroya qeyri-adi Lada Niva satılır...



***Almaniyanın Şenkirxen şəhərində 2010-cu il istehsalı olan "Lada Niva" 5,5 min avroya satışa çıxarılıb. Modifikasiya edilmiş baqajla təchiz edilmiş bu yolsuzluq avtomobili ovçular və it sahibləri üçün idealdır.***

Baqaj ev heyvanları üçün əlverişli yerə çevrilib. Döşəmə və yan panellərin daxili səthləri büzməli kartonla örtülmüşdür, bunun altında istilik və səs izolyasiyası təbəqələri quraşdırılmışdır.

Dizayn ev heyvanlarını soyuqdan qoruyur və səs-küy səviyyəsini azaldır.

Avtomobilin yürüşü 108 min km-dir, lakin hazırkı sahibi avtomobilin texniki vəziyyətinin yaxşı vəziyyətdə olduğunu iddia edir.

SİA-nın məlumatına görə, bu barədə "Yujnıy Federalnı" xəbər verir.

Xatırladaq ki, iyulda dünya üzrə avtomobil satışı 7 412 591 ədədə çatıb. Rusiyada yeni BMW 5-Series-in satışı yenidən başlayıb.

*Nazlı Almuradova*



## Azərbaycan cüdoçusu bürünc medal uğrunda görüşə çıxacaq

Azərbaycanın yeniyetmə cüdoçusu Zeyd Ələsgərov (60 kq) Bolqarıstanın paytaxtı Sofiyada keçirilən dünya çempionatında bürünc medal uğrunda görüşə çıxacaq. SİA-nın məlumatına görə, o, təsəlliverici görüşdə qalib gəlməklə buna nail olub.

Ələsgərov Botond Kunyuku (Macarıstan) qızıl xal bölümündə üstələyib.

## Aktyor bu roldan imtina etdiyinə görə peşman deyil...



"Forsaj" 10 filmi ilə Hollivudun ən böyük aksiyon franşizalarından birinə çevrildi...

...Aktyor Timoti Olifant etiraf edib ki, o, ilk "Forsaj" ("Sürətli və qəzəbli") filmdəki Dominik Toretto rolundan imtina etdiyinə görə peşman deyil.

57 yaşlı aktyordan Vin Dizel franşizasının milyard dollarlıq kassa gəlirinə necə münasibət bəslədiyini soruşublar.

...Heç kəsi incitmədən buna cavab vermək çətindir. Mən o filmləri sevirəm. Hər kəs üçün faydalı olduğuna şadam, - deyib.

Prodüser Neal H. Moritz, Universalın yalnız Olifantın iştirak etdiyi təqdirdə filmi çəkməyə razı olduğunu iddia etdi. O, imtina etdikdən sonra rol o zamanlar yalnız köməkçi rolları, o cümlədən "sıravi Rayanı xilas etmək" üçün tanınan Dizelə təklif edildi.

Bu gün "Forsaj" ("Sürətli və qəzəbli") Los-Ancelesdəki küçə yarışları haqqında hekayədən 10 filmlə Hollivudun ən böyük aksiya franşizalarından birinə çevrildi.

..."Ədalət" ("Justified") serialı və onlarla film, eləcə də televiziya rolu ilə tanınan Olifant populyarlıq səviyyəsindən razı olduğunu vurğulayıb: "Mənim super ulduz olmaq kimi problemim yoxdur və eyni zamanda ən yaxşılarla işləyirəm. Bu mükəmməl birləşmədir".

*Nazlı Almuradova*


Baş redaktor:
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000